www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 mart 2017-ci il Cümə axşamı № 58 (6672) Qiyməti 60 qəpik

Xəbər

**Ağdam sakini anasını avtomobillə vurub öldürdü**

yazısı səh.14-də

Gündəm

**56 milyonluq korrupsiya işi böyüdü**



İsveç Azərbaycanla bağlı mənimsəmə işində bir neçə şirkəti araşdırır; şübhəli məmurlarımız beynəlxalq axtarışa verilə bilər

yazısı səh.5-də

**Parisdə yüksək səviyyəli Azərbaycan-Fransa danışıqları - Ermənistanı məyus edən nəticə**

yazısı səh.9-da

**"Qarabağ klanı"nın parçalanması Ter-Petrosyanın hakimiyyətə yolunu açır**

yazısı səh.15-də

**Övladları qətlə yetirilən məşhurlar**

yazısı səh.4-də

**Şərq ölkələrini viran qoyan "ərəb baharı" Azərbaycanda da baş tutsaydı...**

yazısı səh.7-də

**Bakı İslam ölkələrindən Qarabağa daha güclü dəstək istəyir**

yazısı səh.11-də

**İqtisadçılar manatın məzənnəsinin sabit qalmasına niyə sevinə bilmir...**

yazısı səh.7-də

**İşğalçını ayaqda saxlayan paytaxtlar - xristian təəssübkeşliyinin "astar üzü"**

yazısı səh.11-də

**2050-də 24 milyon insan xərçəng xəstəsi olacaq...**

yazısı səh.13-də

**Avropa Məhkəməsinin hicabla bağlı qərarı etiraz doğurdu**

yazısı səh.13-də

**Paytaxtın 1-ci mikrorayonunun yenidən qurulması 3 il davam edəcək**

yazısı səh.2-də

## Düşmən ölkə daxilində seçkiöncəsi kritik gəlişmə

# ERMƏNİSTAN VƏTƏNDAŞ MÜHARİBƏSİ ASTANASINDA

Ohanyanın seçki blokuna qarşı silahlı hücuma keçən Sərkisyan hakimiyyətinə Qarabağdakı qanunsuz "ordu"nun keçmiş rəhbərindən ultimatum gəldi; **Tofiq Zülfüqarov:** "Qarşıdurma qaçılmaz olacaq..."




yazısı səh.8-də

## Xırdalanda bir gecədə 5 qadının müəmmalı ölümünün təfərrüatları

Tələbələrin və onların yaxın qohumlarının dəm qazından boğulduğu ehtimal edilsə də, digər versiyalar da araşdırılır; **MİS rəisi:** "Evə ilk biz girdik, qaz bağlı idi..."

yazısı səh.3-də



*Bəxtiyar Sadıqov:*

**"Pula satılmış insanları vətən xaini hesab edirəm"**

yazısı səh.6-da



**Aqil Abbas atasının milyonlarından imtina edən dostu ilə bağlı xatirələrini yazdı**

yazısı səh.10-da



*Elxan Şahinoğlu:*

**"Türkiyə və İranla əlaqələrdə ümumiyyətlə viza prosedurundan imtina etmək lazımdır"**

yazısı səh.12-də

16 mart 2017



## Zakir Həsənov döyüş və mənəvi-psixoloji hazırlığın gücləndirilməsi barədə tapşırıq verdi

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov martın 15-də birlik, birləşmə və hərbi hissə komandirlərinin və xüsusi təyinatlı təhsil müəssisələri rəislərinin şəxsi heyətlə iş üzrə müavinləri ilə görüşüb.**

APA-nın MN-in saytına istinadən verdiyi məlumata görə, döyüş və mənəvi-psixoloji hazırlıq işinin hazırkı vəziyyəti ilə bağlı ətraflı təhlil aparan müdafiə naziri bu istiqamətdə fəaliyyətlərin yüksək səviyyədə təşkili, hərbi qulluqçuların milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi, müasir silah və texnikanı dərindən bilmələri və bir çox məsələlərlə bağlı fikirlərini bölüşüb.

Silahlı Qüvvələrin qazandığı nailiyyətləri xüsusi qeyd edən nazir əldə olunan uğurların Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsi olduğunu vurğulayıb.

Sonda nazir döyüş və mənəvi-psixoloji hazırlıq işinin daim gücləndirilməsi, təhlükəsizlik qaydalarına əməl olunması və sayıqlığın artırılması, hərbi qulluqçular arasında fərdi tərbiyə işinin düzgün aparılması, qarşılıqlı münasibətlərin nizamnamələrin tələblərinə uyğun təşkil edilməsi və digər sahələrlə bağlı səylərin artırılması istiqamətində konkret tapşırıqlar verib.

## "“Qaçqınkom”da heç zaman Gülnarə Muxtarova adlı əməkdaş çalışmayıb"

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Gülnarə Muxtarovanın cinayət işi üzrə məhkəmə istintaqı başlayıb. Başlanan məhkəmə istintaqı ilə bağlı bir sıra media orqanlarının yazılarında dələduzluqda təqsirləndirilən Gülnarə Muxtarovanın Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin vəzifəli şəxsi olduğu qeyd edilib.**

Yazılarda qeyd edilib ki, ötən ilin martında Qaradağ Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Balakişi Behbudov, Yaqub Qarayev, Kamal Qasımov və digərlərinə qarşı dələduzluq etmiş Bakı şəhər sakini Gülnarə Muxtarova saxlanılıb. Ətraflı da aparılmış əməliyyat tədbirləri ilə onun ümumilikdə 30 nəfəri aldadaraq onlardan 139 000 manat alması müəyyən edilib. O, həmin şəxslərə Qaradağ rayonu "Ümid" qəsəbəsində məcburi köçkünlər üçün tikilən binalardan mənzil verəcəyini deyib. Bu yolla onların adını siyahıya salmaq üçün külli miqdarda pul alaraq, dələduzluq edib. Bəzi KİV-lərdə bu barədə xəbərlər "Qaçqınkom"un ev vermək adı ilə köçkünlərin pulunu mənimsəyən vəzifəli şəxsinin məhkəməsi başlayıb" şəklində gedib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti bununla bağlı açıqlama verib. "Yeni Müsavat"a verilən açıqlamada bildirilib ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin strukturunda Gülnarə Muxtarova adda vəzifəli şəxs, əməkdaş olmayıb: "Komitədə heç zaman Gülnarə Muxtarova adlı əməkdaş çalışmayıb".

❑ **E.SEYİDAĞA**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Birinci mikrorayonda yenidənqurma işləri 3 ilə yekunlaşdırılacaq

**Bakının 1-ci mikrorayonunda "xruşşovka" kimi tanınan bütün yaşayış binaları söküləcək. «Trend»in məlumatına görə, bunu Azərbaycan baş nazirinin müavini Abid Şərifov deyib.**



O qeyd edib ki, sökülacək binaların yerində 9 və 12 mərtəbəli binalar, eləcə də sosial obyektlər, məktəblər, uşaq bağçaları tikiləcək.

"1-ci mikrorayonda işlərə bu il başlanacaq. İşlərin 3 il ərzində yekunlaşdırılması planlaşdırılır".

Bunu isə FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov deyib. O bildirib ki, yeni binaların altında 2 mərtəbəli avtomobil qarajları da inşa olunacaq. (APA)

"1-ci mikrorayonda mənzilləri sökülən vətəndaşlara yeni evləri hazır olanadək kirayədə qalmaq üçün veriləcək pulun miqdarı onların yaşadıqları mənzillərin sahəsindən asılı olacaq. İnsanlara tam komfortlu mənzillər veriləcək və vətəndaşların köçürülməsinə dövlət özü nəzarət edəcək" - deyə E. Əsədov qeyd edib: "Bakı şəhərində 1-ci mikrorayonun yenidən qurulması ilə əlaqədar tədbirlər barədə qərara əsasən köhnə 5 və 9 mərtəbəli yaşayış binalarının sökülməsi və onların yerində yeni yaşayış binalarının inşa edilməsi nəzərdə tutulub".

**E. Əsədov bildirib ki, Nazirlər Kabinetinin qərarının imzalanmasında təşəbbüskar FHN olub:** "Bu layihə pilotdur, layihə özünü doğrultsa, Bakının digər mikrorayonlarını da əhatə edəcək. 1-ci mikrorayonda işlərin yerinə yetirilməsinə özəl şirkətlərin vəsaitləri cəlb olunacaq. Bakının 1-ci mikrorayonunda evləri sökülacək insanlara sonradan yeni binalarda veriləcək mənzillərin sahəsi əvvəlki mənzillərlə müqayisədə 10 faiz artıq olacaq: "Söküntü-tikinti işləri aparılan zaman vətəndaşların kirayədə qalmaları üçün onlara kompensasiya da veriləcək".

**E. Əsədov qeyd edib ki, ilk növbədə 5 mərtəbəli binaların sökülməsi və onların yerində yeni 20 mərtəbəli binaların inşası nəzərdə tutulub:** "Söküntü və tikinti işləri 3 mərhələdə aparılacaq. İlkin məlumata görə, 1729 ailənin 1-ci mikrorayonda tikiləcək yeni mənzillərə köçürülməsi nəzərdə tutulub. Yeni tikiləcək binaların sayı 30-u keçməyəcək və binalar 1-2 bloklu olacaq. Tikinti işləri 29 hektar ərazini əhatə edəcək, ərazidəki yeni binalar isə söküləməyəcək. 1-ci mikrorayonda sökülacək binaların sayı 34-dür, bunlardan 29-u 5 mərtəbə, 4-ü 9 mərtəbə, 1-i isə 16 mərtəbədir. 16 mərtəbənin söküIüb-sökülməyəcəyi hələ dəqiqləşməyib".



## Taleh Bağırovun müavini tutuldu

**"Müsəlman Birliyi" Hərəkatı adlı təşkilatın təsisçisi və birliyin sədr müavini İsgəndərov Elxan Səyədulla oğlu saxlanılıb.**

Bu barədə "Report"a vəkil Yalçın İmanov məlumat verib.

Onun sözlərinə görə, E.İsgəndərov ötən gecə polis əməkdaşları tərəfindən saxlanılıb: "Bu barədə onun yaxınları mənə məlumat verdi. Lakin hazırda onun harada saxlanıldığı barədə xəbər yoxdur".

Xatırladaq ki, "Müsəlman Birliyi» Hərəkatı adlı təşkilatın sədri Taleh Bağırov 20 il müddətinə azadlıqdan məhrum edilib.



## Metroda həyəcanlı anlar - stansiyada tüstülənmə baş verdi

**Martın 15-də metronun "Gənclik" və "28 May" stansiyaları arasında tuneldə tüstülənmə müşahidə olunub. Musavat.com xəbər verir ki, bununla əlaqədar olaraq "Gənclik" stansiyasının qarşısına yanğınsöndürən maşın və təcili tibbi yardım çağırılıb.**

Məsələ ilə bağlı musavat.com-a məlumat verən "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev bildirib ki, tuneldə tüstülənmə olsa da qatarların hərəkətində problem olmayıb: "Tüstünün başvermə səbəbi araşdırılır. Hər ehtimala qarşı yanğınsöndürən maşın da çağırmışıq. Lakin hərəkətdə problem yaranmayıb və yanğın yoxdur. Ola bilər ki, hansısa kabeldə problem yaranıb".

Tüstü səbəbindən bəzi sərnişinlər özlərini pis hiss ediblər, onlara tibbi yardım göstərilib.

## İslam Həmrəylik Oyunları zamanı nəqliyyatın hərəkəti dəyişdiriləcək

**May ayının 12-22-də Bakı şəhərində keçiriləcək IV İslam Həmrəylik Oyunları zamanı nəqliyyatın hərəkəti, avtomobillərin oyunların keçirildiyi məkanların ərazisinə giriş və çıxışı xüsusi icazə əsasında həyata keçiriləcək.**

"Report" xəbər verir ki, bu barədə Bakı Şəhər İcra Hakimiyyətində oyunlarla bağlı keçirilən mətbuat konfransında bildirilib.



## "Sərkisyanla görüşdə Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət ayırdıq"- Putin

**"Ermənistan prezidenti ilə görüşdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına xüsusi diqqət ayırdıq".**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya prezidenti Vladimir Putin Ermənistan prezidenti Serj Sərkisyanla görüşünün yekunlarına dair keçirilən birgə mətbuat konfransında deyib.

"Rusiya ATƏT-in Minsk Qrupu çərçivəsində, eləcə də Bakı və İrəvanla birbaşa təmaslarda Dağlıq Qarabağ münaqişəsinin qarşılıqlı qəbul olunan həll yolunu tapmağa kömək etməyə davam edir", - deyə Putin qeyd edib.

Serj Sərkisyan isə münaqişənin sülh yolu ilə həllində göstərdiyi səylərə görə Rusiyaya, eləcə də digər həmsədr ölkələrə təşəkkürünü bildirib: "Görüşdə 1994-95-ci illərdə imzalanan atəşkəs sazişinə əməl edilməsinin vacibliyi qeyd olundu. Eyni zamanda Vyana və Sankt-Peterburq görüşlərində əldə olunan razılaşmaların reallaşdırılmasının zəruriliyi vurğulandı. Biz münaqişənin həllində hədə və güc yolunun tətbiqinin qəbul edilməzəliyi, bunun sülh prosesinə zərbə vurması ilə bağlı həmfikirik".

## "Manat möhkəmlənmək üçün böyük potensiala malikdir"

**"Azərbaycan manatı möhkəmlənmək üçün böyük potensiala malikdir". "APA-Economics" "Bloomberg" agentliyinə istinadən xəbər verir ki, bu barədə "Bank of America" korporasiyasının Rusiya və MDB üzrə baş iqtisadçısı Vladimir Osakovskinin bankın müştəriləri üçün yazdığı qeyddə bildirilir.**

Bankir qeyd edir ki, Azərbaycan hökuməti tərəfindən fiskal və pul-kredit siyasətindən aparılan korreksiya "müəyyən formada uğurlu olub".

V.Osakovskinin sözlərinə görə, bank sektorundakı problemlər idarəolunan səviyyədədir.

"Sərt pul-kredit siyasətinə baxmayaraq, manat möhkəmlənmək üçün böyük potensiala malikdir", - deyə bankir qeyd edib.

YENİ MÜSAVAT
N 58 (6672) 16 mart 2017

# Xırdalanda bir gecədə 5 qadının müəmmalı ölümünün təfərrüatları

## Tələbələrin və onların yaxın qohumlarının dəm qazından boğulduğu ehtimal edilsə də, digər versiyalar da araşdırılır; **MİS rəisi:** “Evə ilk biz girdik, qaz bağlı idi...”

**İlaxır çərşənbə gecəsi Xırdalanda beş nəfərin ölümü ilə nəticələnən faciə baş verib. Belə ki, martın 15-i səhər saatlarında Xırdalan şəhəri, 28-ci məhəllə, bina 6, mənzil 4 ünvanında kirayə yaşayan ikisi tələbə olmaqla, beş nəfər qadının meyiti aşkar edilib. İlkin ehtimallara görə, onların dəm qazından zəhərləndiyi bildirilib. Lakin bu faktı təsdiqləməyənlər də var...**











“Yeni Müsavat” qəzetinin reportyor qrupu Xırdalanda baş verən faciə ilə bağlı xəbərin alınca, qeyd olunan ünvana yollanıb və hadisənin təfərrüatlarını öyrənməyə çalışıb.

Hadisə yerinə çatdığımız zaman artıq dünyasını dəyişənlərin meyitləri mənzildən çıxarılmışdı. Öyrəndik ki, dəm qazından boğulduqları bildirilən şəxslər Balakən rayon sakinləri - 1974-cü il təvəllüdlü Nübar Fazil qızı Musayeva, 2000-ci il təvəllüdlü Turanə Vahid qızı Xanlayeva, 1999-cu il təvəllüdlü Lamiyə Vahid qızı Xanlayeva, 1993-cü il təvəllüdlü Aytən Elçin qızı Musayeva və Cəlilabad rayon sakini, 1999-cu il təvəllüdlü Mələk Mübariz qızı Abbasovadır. Lamiyə və Turanə Xanlayevalar bacı olublar.

Mələk Abbasova və Turanə Xanlayeva Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecində oxuyublar.

Elə kollecin direktoru Rüxsarə Əliyeva da təlaş içərisində binanın qarşısında idi. R. Əliyeva ilə söhbətimiz zamanı o söylədi ki, Mələk Abbasova və Turanə Xanlayeva ikinci kurs tələbəsi olublar.

Balakən rayonundan olan digər üç şəxs isə Turanə Xanlayevanın xalası və xalası qızları olub. Bildirildi ki, T. Xanlayevanın xalası Nübar Musayeva onkoloji xəstə olub və Bakıya qızı ilə birgə müalicəyə gəlibmiş...

Binanın qarşısında xeyli sayda insan toplaşsa da, hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə baş verən mənzilə daxil olmağa icazə verməlidilər. Meyitlər içəridən çıxarıldıqdan sonra hüquq-mühafizə orqanlarının əməkdaşları qapını çöldən bağladılar...

**Hadisədən bir neçə saat sonra mənzilə ilk girənlərdən olan Mənzil İstismar İdarəsinin sədri İmamverdi Sadıqov “Yeni Müsavat”a bildirdi ki, onlar içəri daxil olan zaman qaz xətti bağlı olub:** “Hadisə baş verməzdən öncə qohumu qızlara zəng edib. Lakin onlara zəng çatmayıb. Qohumu bundan narahat olduğu üçün onları yoxlamağa gəlib. Ancaq qapının içəridən bağlı olması səbəbindən mənzilə daxil ola bilməyib. Daha sonra ev sahibi ilə əlaqə saxlayıb. Ev sahibi isə mənə zəng vurdu. Nəhayət, üçümüz də mənzilə daxil olmağa çalışdıq. Qapı bağlı olduğu üçün pəncərənin şüşəsini qırıb, içəri daxil olduq. Gördük ki, üç nəfər palazın üstünə yıxılıb, digərləri isə başqa otaqda idilər. Bunu görüncə qapını bağlayıb, heç kimi yaxına buraxmadım. Söylədim ki, polisə zəng edək, onlar gəlib araşdırsınlar. Belə də etdim. Biz orada olduğumuz zaman içəridən qaz qoxusu gəlmirdi. Həmçinin qaz xətti də bağlı idi. Bütün bunları rəhmətə gedənlərin qohumu da gördü ki, qaz yanmır və bağlıdır. Hazırda onların ölümünün səbəbini araşdırırlar”.

Binada yaşayan digər qonşuların da fikirlərini aldıq. Öyrəndik ki, 6 saylı binanın istilik sistemi yoxdur. Qonşular söylədilər ki, binada istilik sistemi olmadığı üçün imkanı olanlar “kombi” qoyublar. Digərləri isə evlərini elektrik pilətələri ilə qızdırırlar. Təbii qazın verilişinə gəlincə, qonşular söylədilər ki, binada bununla bağlı heç bir problem yoxdur: “Qaz normal qaydada verilir. Heç bir problem yoxdur”.

Qonşular onu da dedilər ki, dünyasını dəyişən qızları yaxından tanımasalar da, sakit, ağıllı qızlar kimi xatırlayırlar.

Hadisə ilə bağlı “Azəriqaz”ın İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbəlayevlə də əlaqə saxladıq.

**İ.Kərbəlayev “Yeni Müsavat”a bildirdi ki, hazırda hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır. Hələ ki hadisənin dəm qazından baş verib-verməməsi dəqiq deyil:** “Orada qazın verilişində heç bir problem yoxdur. Onların hansı səbəbdən dünyalarını dəyişməsi hələ dəqiq deyil. Hüquq-mühafizə orqanlarının araşdırmasından sonra bu məlum olacaq. Binada sayğaclaşma işləri aparılıb, qazın da verilişində problem olmayıb”.

**Hadisə ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətindən “Yeni Müsavat”a bildirilib ki, Abşeron Rayon Prokurorluğuna daxil olan məlumat əsasında prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən hadisə yerinə və meyitlərə məhkəmə-tibb ekspertinin iştirakı ilə baxış keçirilib:**

“Hadisə yerindən iş üçün əhəmiyyət kəsb edən maddi sübutlar, o cümlədən qaz sobası götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

İlkin araşdırmalarla müəyyən edilib ki, qeyd edilən ünvanda kirayədə yaşayan Gəncə şəhər sakini 1992-ci il təvəllüdlü Abbasova Mələk Mübariz qızı, Balakən rayon sakinləri - 1974-cü il təvəllüdlü Musayeva Nübar Fazil qızı, 2000-ci il təvəllüdlü Xanlayeva Turanə Vahid qızı, 1999-cu il təvəllüdlü Xanlayeva Lamiyə Vahid qızı və 1993-cü il təvəllüdlü Musazadə Aytən Elçin qızı martın 14-dən 15-nə keçən gecə ilkin ehtimala görə dəm qazından zəhərlənərək ölmüşlər.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmış, iş üzrə müvafiq ekspertizalar, o cümlədən məhkəmə-tibbi və məhkəmə-texniki-təhlükəsizlik ekspertizaları təyin olunub.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir”- deyə, Baş Prokurorluğun mətbuat xidməti tərəfindən bildirilib.

❑ **Əli RAİS,**
❑ **Məğrur MƏRD**

# “Quzu”nun “qurd” üçün nostaljisi



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Son vaxtlar toplumda sovet dönəminə nostalji hissləri tez-tez baş qaldırır. Əlbəttə ki, sıravi vətəndaş, obıvatel bir çox sualın cavabını özü üçün məhz müqayisədə tapır. Hərgah, bilən bilər ki, SSRİ dönəminin bəzi üstünlüklərinə rəğmən (məsələn, tibbi xidmətin, təhsilin pulsuz olması - keyfiyyəti aşağı olsa da), sovet dövrünü “çəhrayı rəng”də təqdim eləmək də kökündən yanlış yanaşmadı.**

İnsaf naminə SSRİ nə qədər “Şər imperiyası” adlansa da, əslində onun konstitusiyası, qüvvədə olan qanunları humanizm, insana qayğı ilə yoğrulmuşdu. Hətta sonuncu SSRİ Konstitusiyasında (6-cı maddədə) 15 müttəfiq respublikanın SSRİ tərkibindən çıxmaq hüququ təsbit edilmişdi. O ayrı məsələ ki, bunlar hamısı kağız üzərində idi və kağız üzərində də qaldı.

Yəni Sovetlər Birliyi hüquqi dövlət deyildi, dünyəvi olsa da, totalitar dövlət idi, təməl azadlıqlar buxovlanmışdı. Burada qanunun yox, Sov.İKP baş katibinin iradəsi ali idi. Nəticə bəllidir - nəhəng dövlət çökdü. Daha doğrusu, müttəfiq respublikaları itirməklə ilk dəfə “qabıq verdi”. Niyə ilk dəfə? Ona görə ki, Sovet Birliyinin hüquqi varisi Rusiyanın özü də SSRİ-nin mini-formasıdır və “qabıq verməyə” hamilədir.

Maraqlıdır, bəs qanunun aliliyi təmin edilsəydi, kağız üzərindəki demokratik dəyərlər (azad seçki və s.) gerçək olsaydı, görəsən sovet dövlətinin axırı necə olardı? Yəqin ki, SSRİ yenə çökərdi. Çünki enində-sonunda 6-cı maddə işə düşərdi - demokratik qaydada.

Fəqət, bu maddə axır ki, işə düşmədi, Sovet İttifaqı qansız dağıla bilmədi. Amma müttəfiq respublikaların hamısı müstəqil oldu. Görünür, Moskva hələ də bu hadisəni milli respublikalara bağışlaya bilmir. Bağışlasaydı, yəni reallıqla - SSRİ-nin çöküşü ilə barışsaydı, o zaman postsovet məkanında neçə-neçə etnik-ərazi münaqişələri alovlandırmazdı ki. Qarabağ konfliktinin 29 ildir yoluna qoyulmamasının tək səbəbi də odur - Rusiya bu günədək Azərbaycan daxil, müttəfiq respublikaların müstəqilliyini həzm edə bilməyib.

Bütün bunların fonunda Rusiya xarici işlər naziri Sergey Lavrovun “Rusiyanın nə SSRİ-ni yenidən qurmaq planları, nə də hansısa imperiya ambisiyaları var” söyləməsi, yumşaq desək, səmimi təsiri bağışlamır, inandırıcı deyil. Bu, təxminən qurdun quzuya “gəl mənimlə gecələ, sənə heç nə etmərəm” kimi məkrinə bənzəyir.

Lavrov bir az da qabağa gedərək, “qurd” stilində bəyan edib ki, “Rusiyanın imperiya ambisiyalarının olması və SSRİ-ni yenidən qurmaq planları barədə fikirlər fantastika janrına aiddir və ciddi qəbul edilməməlidir”. Onun sözlərinə görə, Kreml keçmiş sovet respublikalarının müstəqillik seçiminə həmişə hörmətlə yanaşır.

Ancaq icazə verin, cənab Lavrov-Kələntərova etiraz edək. Hanı keçmiş sovet respublikalarına hörmət-izzət, hansı formada bu özünü göstərir? Belə bir şey varsa, o zaman Gürcüstanın, Ukraynanın parçalanması, ərazilərinin bir hissəsinin Rusiyaya zorla ilhaq edilməsi nədir bəs? On illərdir körüklənən Qarabağ ixtilafı, Dnestryanı bölgədəki münaqişə də öz yerində.

Odur ki, Vladmir Jirinovskinin Avrasiya Birliyi ilə bağlı söylədikləri, o sırada “Qarabağ məsələsinin həlli yalnız vahid Avrasiya dövlətinin tərkibində mümkündür” bəyanatı, yaxud onun “Rusiya monarxiya olmalıdır” sözləri qat-qat səmimi təsiri bağışlayır. Çünki rəsmi Kremlin SSRİ ilə bağlı ovqatını daha yaxşı ifadə edir. Adamın söylədikləri ona görə səmimi görünür ki, reallıqdan qaynaqlanır.

Sözü ona gətiririk ki, köhnə, sovet əyyamına nostalji hissi hardasa normal sayıla bilər - bir şərtlə ki, SSRİ-nin çöküşündən sonrakı sərt reallıqlar unudulmasın, “qurdun quzuya verdiyi” vədlərin mahiyyəti ciddiyə alınsın.



# Dayansaq, bizi "gülləleyərlər..."

Hüseynbala SƏLİMOV

**Əksər ölkələrin, xüsusən də həmsədr dövlətlərin Bakı və İrəvana münasibətdə bir növ "simmetriya" gözləməsi bizim üçün elə bir yenilik deyildir. Onlar adətən bu iki ünvandan kimisə öz ölkələrinə çağıranda və yaxud da özləri oralara səfərlər edəndə bunu hər iki ölkə ilə bağlı edirlər ki, hansısa tərəfdə inciklik yaranmasın.**

Bu baxımdan Azərbaycan rəhbərinin də Fransaya səfəri elə də böyük, xüsusi bir izahat tələb etmədi - aydın idi ki, lap elə yaxın günlərdə Fransa rəhbərliyi Azərbaycan prezidentini də Parisdə görmək istəyəcək.

Rəsmən diplomatik münasibətlərin yaranmasının 25 illiyi ilə əlaqələndirilsə də bu səfəri həm də bir işçi səfər kimi qiymətləndirmək olardı, ən azı ona görə ki, neçə illərdir Fransa Minsk Qrupunun həmsədrlərindən biridir.

Düzdür, Fransa prezidenti F.Olland da artıq vəzifəsi ilə vidalaşmaq ərəfəsindədir. Amma Fransa həmsədr ölkə olaraq qalır. Ona görə də iki münaqişə tərəfinin başçılarını bir daha dinləmək və ya onları bir araya gətirməyə cəhd etmək bir növ həmsədr ölkə kimi Fransanın diplomatik və siyasi missiyasına daxildir.

Minsk Qrupu, eləcə də onun üç həmsədrindən biri kimi Fransanın haqqında demək olar ki, hamı hər şeyi yaxşı bilir. Ona görə də nəyisə izah etməyə çalışmaq və hansısa "proqnoz"lar verməyə cəhd göstərmək tamamilə artıq, bəlkə də gülünc məşğuliyyətdir.

Ona görə də hətta hakim partiyanın təmsilçilərinin özləri etiraf etdilər ki, bu səfərdən demək olar ki, heç nə gözləmirlər. Bizim də buna əlavə bir ştriximiz yoxdur - bu illər ərzində Fransa nə edib ki, bundan sonra da etmiş olsun?..

Amma başqa yol da yoxdur. Biz Fransa ilə də işləməliyik - buna söz yox. Fəqət, bizə sırınan formatlarla kifayətlənməməliyik. Ermənilər zənn edir ki, biz heç vaxt mövcud formatlar çərçivəsindən çıxmayacağıq. Amma biz hamı ilə işləməliyik, ermənilərə elə istiqamətlərdən zərbə vurmalıyıq ki, onların heç ağlına belə gəlməsin...

Düzdür, Avropanın indiki çağında, bizim təbii müttəfiqimiz olan qardaş Türkiyə ilə Avropa arasında əsl diplomatik savaş getdiyi bir vaxtda belə nikbin danışmaq bəlkə də bir az təəccüblü görünər.

Amma gəl, dünyanı tələm-tələsik dostlara və düşmənlərə bölməyə ehtiyac yoxdur. Bəli, bir siyasi dalğa digərini əvəz edir, başqası gəlir və illərlə oturuşan siyasi və geosiyasi arxitekturanı təftiş etməyə başlayır...

Elə mən də "təftiş" sözündən bərk yapışmaq istərdim. İndi Avropada təftiş prosesi gedir. İnsanlar soyuq müharibə dövründə bərqərar olmuş institutları, müvafiq əməkdaşlıq və ya təhlükəsizlik arxitekturasını, hətta özlərinin keçmiş müttəfiqlərini belə təftiş etmək istəyirlər. Buna da təbii baxmaq lazımdır. Soyuq müharibə vaxtı hər iki tərəf üçün ən kiçik dövlət belə böyük önəm kəsb edirdi və institutlaşma bir ideya müstəvisi - kommunizm və antikommunizm müstəvisi üzərində bərqərar olmuşdu.

Artıq o ideoloji çəpər götürülüb. Yeni ideya müstəvisi və onun üzərində yeni arxitektura qurulmalıdır. Bir ara güman edildi ki, həmin bu yeni ideya müstəvisi beynəlxalq terrora qarşı birgə mübarizə olacaqdır. Amma hiss olunur ki, həmin platforma uğurlu olmadı, indi yeni axtarışlar gedir və hər şey yenidən təftiş edilir. Nə biz, nə Türkiyə, nə də digər müsəlman dövlətləri bu prosesdən kənarda qalmamalıyıq. Hamı ilə işləməli və həmişə iş başında olmalıyıq...

Aristotel deyirdi ki, təbiət boşluğu sevmir. Onun ardınca demək olar ki, siyasət də boşluğu sevmir, - sənin olmadığın yer dərhal tutulur. Ən əsası da dünya informasiya dünyasıdır - daim məlumatlandırmalısan, daim öz mövqelərini gücləndirməyə çalışmalısan.

Başqa cür mümkün və yaxud da məqbul deyildir. Bəlkə də bu bir az yorucu, bezdirici görünür və hamıya ilk baxışda elə görünür ki, hərə öz evinə çəkilsə daha yaxşı olar. Amma gəl, mümkünmü?..

Təbii, mümkün deyil. Siyasət onunla məşğul olanlardan daim, permanent səylər tələb edir. Lap A.Məmmədovun məşhur bir essesində deyildiyi kimi: "Əhədi kəsilmiş atları güllələyirlər!"..

Bəli, getdikcə dünya böyük cıdır meydanına bənzəyir. Daim "qaçmaq" lazım gəlir... Bir daha deyirəm ki, başqa yol yoxdur, çünki əhədi kəsilmiş atları güllələyirlər...

# Üç "OMON"çunun 66 illik həbs müddəti - "Yeganə arzuları azadlıqda ölməkdir..."

## Mirvari Qəhrəmanlı: "22 il həbsdə yatmaq ölümdən də betərdir"

**"OMON" hadisələrindən 22 il ötür. Hazırda bu hadisələrdə iştirak edən şəxslərdən üç nəfər həbsdədir. Onlar ömürlük cəzaya məhkum edilmiş Elçin Əmiraslanov, Səfa Poladov və Arif Kazımovdur. İndiyə qədər edilən cəhdlərə baxmayaraq, dəfələrlə onların əfv müraciətləri olsa da, hər üç ömürlük məhbus Qobustan həbsxanası ilə vidalaşa bilməyiblər.**



Martın 14-də Ali Məhkəmədə onların kasasiya şikayətinə baxıldı və müdafiə tərəfin cəzanın 20 illə əvəz olunması barədə verdiyi vəsatət təmin olunmadı. Bundan sonra gözlər bugünlərdə veriləcək əfv sərəncamına dikilib. Bu əfvdə onların azadlığa buraxılmasına olan ümidlər kifayət qədər çoxdur.

Ümumiyyətlə, onların hər biri 22 il həbsxanada cəza çəkmələrinə baxmayaraq, azad edilmələri daim müzakirə mövzusu olub. Təsadüfi deyil ki, 1995-ci ilin bu günlərində baş verən hadisələrdə cinayət məsuliyyətinə cəlb olunanlardan hər kəs azadlıqdadır, yalnız bu üç şəxsdən başqa...

**Onların hüquqlarını qoruyan vəkil Elçin Sadıqov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, vaxtilə onlara qarşı sərt cəza tətbiq olunub:** "Qanun sərt tətbiq olunduğuna görə indi də bunu aradan qaldırmaq mümkün olmur. Hər üç şəxs ağır xəstəlikdən əziyyət çəkir. Dəfələrlə azad olunmaları üçün müraciət edibər. Ən azından indi çox ümid edirik ki, onlar bu əfvə düşərlər. Onların yeganə arzuları azadlıqda ölməkdir. Bir çox MDB ölkəsində bu problem həllini tapıb. Ancaq ölkəmizdə bununla bağlı işlər həyata keçirilməyib. Ümid edirik ki, ən azından əfvlə bu məsələləri həll etmək olar. Ali Məhkəmənin son qərarı qanunsuz idi. Bizim Avropa Məhkəməsinə müraciət etməkdən başqa yolumuz qalmayıb. Amma əfvlə onlar azad olunsalar, bu məsələdən daşınacağıq".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı Azərbaycanda həm dində, həm də insanlıqda bağışlamaq, tolerantlığın olduğunu söylədi:** "Hər şey siyahını əfv üçün təqdim edənin necə təqdim etməsindən asılıdır. Necə təqdim edəcəksə, o qədər də fikir formalaşdıracaq. 22 il keçib. Bu illər ərzində ölkədə yaxşı və pisə doğru dəyişikliklər olub. Bu insanlar cəmiyyət üçün qorxulu deyillər. 22 il həbsdə yatmaq ölümdən də çətindir. İndi ümidlər yalnız prezidentə qalıb. Bildiyiniz kimi, əfv üçün siyahı artıq təqdim olunub və onların da adı var. Kimin təqdim etdiyini deyə bilmərəm. Prezidentə siyahını təqdim edəni humanistliyə çağırıram. Demək istəyirəm ki, onların əfvə düşməsi üçün artıq prezidentə müraciət olunub. Onların həbsdə qalmaları üçün yəqin elə səbəblər var ki, cəmiyyətə açıqlanmır. Müəyyən şəxslərin həbsdə qalmalarında maraqlı olan şəxslər olur, kimisə sifarişli həbs edirlər, yəni səbəblər çoxdur. Bu baxımdan, üç "OMON"çunun həbsdə qalmasında maraqlı şəxslər ola bilər. Yaxşı tərəfdən yanaşanda da, bu şəxslərin adlarının əfv siyahısında olmasının məhkəmə qərarına təsir etdiyini düşünmək olar. Onlarla bağlı görülən işləri də qənaətbəxş saymıram. Əfv çatan zaman bu istiqamətdə çalışmaq doğru deyil. Hər zaman fəaliyyət göstərmək lazımdır, istər onların yaxınları, istərsə də hüquqlarını müdafiə edən şəxslər hər gün çalışmalıdırlar. Yalnız ortada 1-2 jurnalist qalıb, bir də barmaqla sayılan mətbuat orqanları. Sizin qəzet adətən tez-tez bu məsələni gündəmə gətirir. Mətbuat ilboyu bu məsələni diqqətdə saxlamalıdır. Çox təəssüf ki, sizin mətbuatdan başqa bu şəxsləri diqqətdə saxlayan yoxdur".

**Respublika "OMON"un əfsanəvi komandiri Nizami Şahmuradov döyüş yoldaşlarının həbsdə qalması barədə bunları dedi:** "Təəssüf ki, məhkəmə qərarı yenə də qüvvədə saxladı. Bütün şəxsi heyət azadlığa çıxıb, yalnız üç nəfərimiz qalıb. Azad olunan şəxslərdən kim indiyə qədər hansısa bir cinayəti törədib ki, bunlar da azad olunduqdan sonra nəsə bir cinayət törətsinlər. Bunlar xəstə adamlardır. Torpaq uğrunda Elçin canını fəda edib. Yenə də bunu etməyə hazırdır. Heç bir məhkəmə onları azad etməyəcək. Ümidimiz yalnız prezidentədir. Həqiqətən onların vəziyyəti çox ağırdır. Sağ olun ki, sizlər daim bu məsələni diqqətdə saxlayırsız. Hər şey üç hərfin üzərindədir. Olan oldu, işdir başımıza gəldi..."

❑ Cavanşir ABBASLI

# Övladları qətlə yetirilən məşhurlar

## Onların arasında azərbaycanlı tanınmışlar da az deyil...



Fikrət Qoca



Nuriyyə Əhmədova



Həsənağa Turabov

**Xalq şairi Fikrət Qocanın 57 yaşlı oğlu Yalçın Qocayevin döyülərək öldürülməsi xəbəri eşidənləri sarsıtdı. Xalq şairinin "istəyirlər 100 adam tutsunlar, bunun mənə nə xeyri var, mənim bir oğlum var idi" deməsi bu acını daha da artırmış oldu. Əvvəlcə oğlunun bədbəxt hadisə nəticəsində dünyasını dəyişdiyini, daha sonra isə məhz qətlə yetirilərək öldürülməsini eşidən atanın hansı hisslər keçirdiyini təsəvvür etmək çətin deyil.**

Qeyd edək ki, övladı qətlə yetirilən, bu cür acını yaşayan çoxlu sayda məşhurlarımız var. Onlardan bir neçəsini təqdim edirik.

Övlad acısının ən dəhşətini yaşayan mərhum xalq artisti Nuriyyə Əhmədovadır desək, yanılmarıq. Belə ki, onun 20 yaşlı qızı İlahə 1996-cı ildə psixi xəstə olan əri tərəfindən öldürülüb. Aktrisanın qızı öldürülən zaman 20 günlük körpəsi olub. Anasının gözü qarşısında qətlə yetirilib və onun qucağındaca can verib. Nuriyyə Əhmədova müsahibələrinin birində hadisəni bu cür xatırlayıb: "Oğlan aviasiyada oxuyurdu, vermək istəmirdik. Qızı başdan elədi, deyirdi ki, ana, yazıqdır, anasız oğlandır, ona getməsəm, özünü öldürəcək. Götürdü qaçırdı balamızı. Əlac kəsildi, toyunu elədik. Qız hamilə olanda, uşaq təzə olanda bizimlə qalırdılar. Səhər tez durub öz balam kimi qulluğunda dururdum, onu dərsə yola salırdım. Sən demə, oğlan psixi xəstə imiş, anası nə qədər ki, sağ imiş, bunu vaxtlı-vaxtında müalicə etdirirmiş. Ana rəhmətə gedəndən sonra ata boş buraxıb, müalicə etdirməyib. Qızın da bundan xəbəri yox. Bizə də məhkəmə prosesində dedilər. Tutmasının vaxtı gəlib, qızımızı bədbəxt edib..."

Məşhur diktorlar - xalq artistləri Roza Tağıyeva və Rafiq Hüseynovun ailəsində baş verən övlad faciəsi isə zamanında hər kəsi dəhşətə gətirib. Məlumata görə, cütlüyün Rövşən adlı oğlunu kimlərsə doğrayıb, qətlə yetirmiş, meyitin qalıqlarını isə çamadana yığıblar. Qeyd edək ki, Rövşən Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin tələbəsi imiş. Dəhşətli hadisənin hansı səbəbdən törədilməsi indiyədək sirr olaraq qalır. Faciədən bir müddət sonra məşhur cütlük ayrılmaq qərarına gəlib.

Görkəmli aktyor Həsənağa Turabov da övlad acısı yaşamış sənətkarlardan biridir. Onun böyük oğlu Daşqın Turabov aktyorluq fakültəsini bitirsə də sonradan əlavə təhsil alaraq polis işləməyə başlayıb. Təyinatla Siyəzənə göndərilən D.Turabov orada balıq mafiyasını zərərləşdirərkən gülləyə tuş gəlib və yerindəcə dünyasını dəyişib. Həyatın heç bir çətinliyi qarşısında əyilməyən Həsənağa Turabov oğlunun faciəvi ölümündən sonra sağlamlığında kəskin problemlər yaşamağa başlayır və uzun sürən xəstəlikdən sonra 2003-cü ildə dünyasını dəyişir.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 58 (6672) 16 mart 2017

# 56 milyonluq korrupsiya işi böyüdü - beynəlxalq skandal

## İsveç Azərbaycanla bağlı mənimsəmə işində bir neçə şirkəti araşdırır

**Azərbaycan dəmir yolunun təchizatı tenderinə dair korrupsiya işi ilə bağlı İsveç prokurorluğu bir yox, bir neçə şirkətin fəaliyyətini araşdırır. Bu haqda işi aparan İsveç prokuroru BBC Azərbaycancaya bildirib. "Araşdırdığımız siqnalizasiya layihəsinə hazırda və keçmişdə aidiyyəti olan bir yox, bir neçə fərqli şirkət var", - deyən Thomas Forsberg konkret şirkətin adını çəkə bilməyəcəyini bildirib.**



Ötən cümə günü İsveç prokurorluğu 2013-cü ildə Azərbaycan dəmir yolunun təchizatı üzrə tenderlə əlaqədar Azərbaycan rəsmilərinə rüşvət verməkdə şübhəli bilinən Kanadanın "Bombardier" şirkətinin əməkdaşını həbs edib. Thomas Forsbergin sözlərinə görə, təyyarə və dəmir yolu avadanlığı istehsal edən "Bombardier"in bir neçə əməkdaşı Azərbaycan rəsmiləri ilə gizli sövdələşmədə şübhəli bilinirlər. 2013-cü ildə "Bombardier Trasportation" şirkəti Avropa ilə Asiyanı bağlayan Bakı nəqliyyat layihəsinin siqnalizasiya avadanlığı ilə təchiz edilməsi barədə tenderi qazandıqdan sonra ilk sifarişi qəbul etdiyini elan edib. Thomas Forsberg bildirir ki, üç il əvvəl keçirilən tenderdə daha yüksək qiymət təklif edən başqa şirkətlərin iştirakına rəğmən müqavilə "Bombardier" şirkəti ilə imzalanıb. ""Bombardier" başqa iştirakçılardan az təklif etsə də, 2013-cü ildəki tenderi qazandı", o deyib. İsveç prokuroru antikorrupsiya işi ilə bağlı İsveçdə yaşayan Rusiya vətəndaşının həbs olunduğunu və növbəti məhkəmə iclasına kimi onun həbsxanada saxlanılacağını bildirib. Həbs edilən şəxsin vəkili ittihamları rədd edir. Thomas Forsberg Azərbaycan tərəfi ilə istintaq çərçivəsində təmasda olub-olmadığı barədə suala cavab verə bilməyəcəyini deyib. Lakin onun sözlərinə görə, məsələ beynəlxalq miqyaslıdır və antikorrupsiya işi üzrə bütün tərəflər əməkdaşlıq etməlidir. İsveç prokuroru istintaq davam etdiyi üçün əlavə təfərrüatlara varmaq istəmədiyini bildirib. Məsələ ilə bağlı araşdırma aparan Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsinə əsasən İsveçdə mənzillənən "Bombardier Transportation" AB qrupu Britaniyada qeydiyyatdan keçmiş və yalnız kağız üzərində mövcud olan şirkət vasitəsilə Azərbaycandakı rəsmilərə milyonlarla dollar ödəyib. Məsələni araşdıran İsveçin TT agentliyi və Uppdrag Granskning TV proqramında bildirilir ki, Azərbaycan dəmir yollarının siqnallaşdırma avadanlığı ilə təchizatına dair müqavilə 340 milyon dollar dəyərindədir. İddia olunur ki, üçüncü tərəf vasitəsilə alınmış dəmir yolu avadanlığı sonradan daha yüksək qiymətə satılıb. İsveç prokurorluğuna əsasən dəlillər ötən ilin oktyabr ayında "Bombardier"in İsveçdəki ofisindən müsadirə edilmiş elektron məktublardan ibarətdir. "Bombardier" şirkətinin sözçüsü əməkdaşının həbs edildiyini təsdiqləyib, lakin əlavə şərh verməkdən imtina edib. **"Biz hakimiyyətlə tam əməkdaşlıq edəcəyik"**, - Barbara Grimm "Reuters" agentliyinə bildirib. Kanadanın baş naziri Justin Trudeau cümə günü deyib ki, Kanada şirkətindən "ən yüksək etik davranış" standartlarına riayət edilməsini gözləyir.

**Hüquqşünas Əkrəm Həsənov deyir ki, Azərbaycanda tenderlərin keçirilmə qaydası bu sahə ilə az-çox tanışlığı olan hər kəsə bəllidir. Hüquqşünasın sözlərinə görə, tenderlərdə adətən elə keçirənlərin özləri qalib olurlar:** "Tenderdə əsas məqam təklifin tələbə uyğun olmasıdır. Tutaq ki, mən tələbkar olaraq 3 gün ərzində 10 kiloqram Quba alması almaq istəyirəmsə və ümumi qiymətin 10 manatı aşmamasını arzu edirəmsə, təklif buna uyğun olmalıdır. Quba alması əvəzinə Afrika bananı təklif edənin ərizəsi dərhal çıxdaş olunur. Tələbə uyğun təklif verənlərin təklifləri nəzərdən keçirilir və ən optimalı və əsas məsələ qiyməti daha uyğun olanı qəbul edilir. Amma məsələ bundadır ki, tenderlər keçirənlərin özləri adətən şirkətlər yaradırlar. Həmin şirkətlər də elan olunan tenderə qatılır. Tenderdə real iş görmək istəyən şirkətin təklifləri sırasından ən uyğunu seçilir, amma həmin təkliflər paketi tenderi keçirənlər öz şirkətlərinə ötürürlər. Vəssalam. Həmin şirkəti də tender komissiyası qalib elan edir, pulları da götürüb istədiklərini edirlər. Və yaxud da belə də olur ki, hansısa şirkətlə tenderə qədər razılaşma əldə olunur. Bundan sonra tender elan edilir. Tenderə tenderi keçirənlərin özlərinə yaxın şirkətləri və əvvəlcədən qalib elan ediləcəyi bilinən şirkəti buraxırlar. Həmin şirkət və digərləri tenderdə iştirak edirlər və nəticə də əvvəlcədən razılıq əldə olunan şəkildə olur. Yəni qalib tenderdən əvvəl "görüm-baxım", "hörmət" etmiş şirkət olur. Tenderin adı var, faktiki isə qabaqcadan kimin qalib olacağı bilinir".

Hüquqşünas deyir ki, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlar da belə tender oyunlarına qarışırlar: "Xarici şirkətlər də Azərbaycandakı oyun qaydalarına uyğun olaraq tenderlərdə iştiraka tenderi keçirənlərlə "dil tapandan" sonra qərar verirlər. Yəni xarici şirkət Azərbaycanda tenderdə qalib gəlmək istəyirsə, ona deyirlər ki, oyun qaydaları budur - ya ümumiyyətlə iştirak etmə, edirsənsə, qaydalar bunlardır. Azərbaycandakı beynəlxalq təşkilatlar - istər Dünya Bankı olsun, istərsə də QHT-lər, fərq etməz, tenderlərdə yazılmayan qanunlara uyğun iştirak edirlər. Fikir verin, Azərbaycanda beynəlxalq təşkilatlar yüzlərlə qanunvericiliyin hazırlanmasında tenderlərin qalibləri olublar. Amma onların hazırladığı qanunlar hansı səviyyədədir. Niyə belə olub? Ona görə ki, oyun qaydalarına uyğun fəaliyyətə razılıq verənlər tenderlərə qatılıblar, qazanıblar, qazandırıblar. Çünki həmin o beynəlxalq təşkilatlarda da korrupsionerlər var. Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin əksəriyyəti artıq azərbaycanlılaşıblar".

Ə.Həsənov bildirib ki, bu gün nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin adları belə tender oyunlarında hallanır: "Ədalət naminə demək lazımdır ki, Hollandiya, İsveç, Avstriya, Almaniya, İngiltərə kimi dövlətlərdə belə hallar haqda məlumatlar olanda dərhal araşdırmalara başlanır. Bu işlə bağlı İsveçdə olan kimsə varsa tutulub istintaqa cəlb olunacaq, Azərbaycandan olanlar isə axtarışa veriləcək. İsveçdə qanunun aliliyi hər şeydən üstün tutulur".

Qeyd edək ki, böyük yeyinti faktlarını üzə çıxaran İsveçin SVT telekanalı, TT agentliyi və "Radio Canada", habelə mütəşəkkil cinayətkarlıq və korrupsiya araşdırmaları üzrə jurnalistika Mərkəzi OCCRP-dir. Jurnalistlər aşkara çıxarıblar ki, "Bombardier" şirkəti ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında bağlanmış müqaviləyə əsasən, 46 siqnal avadanlığı birbaşa Azərbaycana göndərilir, ancaq pullar Londonda qeydiyyatdan keçmiş, nə ofisi, nə ünvanı, nə telefon nömrəsi olmayan hansısa şirkətə köçürülür. Sövdələşməyə əsasən, siqnalizasiya avadanlıqlarının təchizatı iki ayrı müqavilə əsasən həyata keçirilir. Birinci müqavilə üzrə "Bombardier" şirkəti tərəfindən "Ebilock-950" siqnalizasiya avadanlığı 126 milyon İsveç kronuna Londonda qeydiyyatdan keçmiş həmin "Multiserv Overseas" şirkətinə satılır, həmin şirkət isə avadanlığı bu dəfə 5,5 dəfə baha qiymətə, yaxud o vaxtkı məzənnə ilə 695 milyon krona və ya 104 milyon dollara Azərbaycana satır. İsveç prokurorluğu bildirir ki, Azərbaycan məmurları "Bombardier" şirkəti ilə bağlanmış müqavilədən bu fırıldaq mexanizm sayəsində "otkat" alıblar. İsveç hüquq-mühafizə orqanları diqqəti belə fakta yönəldir ki, 2013-cü ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin elan etdiyi həmin tenderə "Bombardier" şirkətindən başqa bir neçə şirkət də qatılmışdı və onlar xeyli aşağı qiymət təklif etmişdilər. Lakin müqavilə "Bombardier"lə bağlanıb. Həmçinin üzə çıxıb ki, müqavilə üzrə işlərin görülməsi zamanı 56 milyon dollar Azərbaycan məmurlarına ötürülüb.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 58 (6672) 16 mart 2017



# Karakas mənzərələri

**Samir SARI**

**Çox-çox uzaqlarda, Cənubi Amerika materikinin şimalında Venesuela adlı bir ölkə var, rəsmi adı Venesuela Bolivar Respublikasıdır. Respublikanın adındakı "Bolivar" kəlməsi məşhur dövlət xadimi Simon Bolivarla bağlıdır. Bildiyiniz kimi, o kişi Cənubi Amerikada bir çox dövləti abadan eləyib, müstəmləkəçilikdən qurtarıb. Ona görə də onun adını respublikanın adına veriblər. Ancaq bunun mətləbə dəxli yoxdur.**

Əsas məsələ odur ki, Atlantik okeanının, Karib dənizinin sahilində yerləşən bu neft ölkəsi illərdir dünyanın diqqət mərkəzindədir.

Əvvəllər bu ölkənin rəhbəri Uqo Çaves tez-tez öz qərar və çıxışlarıyla dünyanın diqqətini öz ölkəsinə yönəldirdi, indi o işə Çavesin siyasi xələfi Nikolas Maduro baxır.

Bu saat Venesuela haqqında son xəbər budur ki, bu ölkənin parlamenti ölkədə humanitar böhranın olduğunu elan edib.

Heç demə, Venesuelada ərzaq çatışmazlığı əmələ gəlib, inflyasiya sürətlənib, kasıbçılıq artıb, aclıq ola bilər və s. Buna səbəb isə neftin qiymətinin dünya bazarında düşməsi ilə əlaqədar dövlətin gəlirlərinin azalmasıdır. Üstəlik, ölkənin qanunverici və icra hakimiyyəti arasında yekə bir siyasi böhran var.

Bəli, neft budur, özündə çox ciddi enerji daşıyır. Nə qədər ki, neft bahaydı, Venesuela enerjili ölkəsi idi. Düzdür, onlar qitə yarışlarında stadionlara "Energy of Republica Bolivariana de Venezuela" reklamı yerləşdirmirdilər, amma rəhbərləri qırmızı köynək geyərək yekə-yekə danışırdılar.

İndi neftin qiyməti olub beş-on qara bolivar (yerli pul vahidi), xalqın, eləcə də hökumətin qanı qaralıb.

Mediada yazılanlara görə, hələ Çavesin vaxtında, neftin qiymətinin kəllə-şarxa qalxdığı illərdə yerli iqtisadçılar deyirmişlər ki, neftin baha satılmasına, neftdən gələn pullara güvənmək olmaz, qeyri-neft sektorunu inkişaf etdirmək, ölkə iqtisadiyyatını neft pullarının asılılığından qurtarmaq lazımdır.

Amma ölkədə rəsmən çavizm rejimi hökm sürdüyündən iqtisadiyyat naziri və neft strategiyasına cavabdeh olan şəxslər iqtisadçılara rişxənd ediblər, deyiblər ki, bizim 100 illik neft ehtiyatımız var, heç kəs narahat olmasın, opponentlik edənlər də... vaya, raspadura del vientre (yəni gedin, qarnınızı qaşıyın).

Vəziyyətin bu yerə çatmasının adı artıq "Venesuela sindromu" qoyula bilər. Bildiyiniz kimi, bundan əvvəl bir "Holland sindromu", bir də "Nigeriya sindromu" vardı. "Holland sindromu" uzun söhbətdir, həm də son vaxtlar mənası dəyişib, elə anlaşılar ki, söhbət türkiyəli nazirlərə qarşı yol verilən hərəkətlərdən gedir.

"Nigeriya sindromu" isə sırf neft pulları ilə bağlıdır. Ciddi sindromdur, amma izahı sadədir və belədir: neft tükənir, ucuzlaşır, pul azalır, hər şey bahalaşır və ölkədə çığırışma başlayır, vay-nöfsə qopur.

Bir zamanlar Nigeriya dünyanın hər yerinə neft satırdı, milyardlar qazanırdı. Amma qazanılan pulları məmurlar nə təhər dartıb-dağıdıblarsa, hazırda acından ölən vətəndaşlarının sayına görə Nigeriya dünyanın öndə gedən ölkələrindən biridir.

İndi qorxu var ki, Venesuela da Nigeriyanın gününə düşsün. Elə olsa, pis olar. Çünki ağlınız müdrik və dözümlü xalqlara, ictimai-siyasi sabitliyin əmin əllərdə olduğu, ictimai asayişin göz bəbəyi kimi qorunduğu ölkələrə getməsin, venesuelalılar bir az əldən şor, beyindən qıvraqdırlar, o yan-bu yan olan kimi üsyana qalxırlar. Son 170 ildə yeddi dəfə vətəndaş müharibəsinə girmiş, bir-birini qırmış camaatdır, indiyədək saysız-hesabsız üsyanlar ediblər.

Ona qalsa, heç neftdən əli üzülmüş Nigeriya camaatı da dinc deyil, "Boko haram" qıra-qıra gedir.

Uzun sözün kəsəsi, Venesuelanın indiki halına, Karakas mənzərələrinə baxıb dərs çıxarmaq lazımdır. Əlbəttə, "Karakas mənzərələri" deyərkən, bu ölkədə istehsal olunan seriallarda göstərilən dəbdəbəli göydələnlər, təmtəraqlı otellər, alış-veriş mərkəzləri nəzərdə tutulmur, kasıbçılığa görə mısmırıqlı-mısmırıqlı gəzən, hökumətlə və bir-biri ilə dalaşan adamların yaratdığı mənzərələr nəzərdə tutulur.

Optimist adamlar belə yerdə adətən "Allah göstərməsin" deyirlər, pessimistlər hələ bir söz demirlər, eləcə, qara-qara düşünürlər.

# YAP-çı deputatdan xaricdəki müxalifətə ağır suçlamalar

## Bəxtiyar Sadıqov: "Pula satılmış bu insanları vətən xaini hesab edirəm"

**Azərbaycan müxalifətinin son zamanlar xaricdə təşkilatlanmağa daha çox meylli olduğu açıq şəkildə görünür. Bunu onların Avropaya mühacir kimi üz tutan tərəfdarlarının yaratdıqları təşkilatlara əsasən söyləmək mümkündür.**

Təsadüfi deyil ki, hazırda azərbaycanlı müxalif mühacirlərin müxtəlif adlarda yaratdıqları çoxsaylı qurumlar mövcuddur. Hətta iş o yerə çatıb ki, öz təmsilçisi olduqları təşkilatların Avropada mərkəzlərini yaradırlar. Görünən də odur ki, ölkə daxilindəki müxalifətdən xaricdəki etirazçı qüvvə daha fəaldır. Onların hər həftə müxtəlif ölkələrin, şəhərlərin mərkəzlərində təşkil etdikləri aksiyalar bunu deməyə əsas verir. Bütün bunlar onu göstərir ki, müxalifətin xarici qanadı iqtidara qarşı daha sərt mövqe sərgiləyir.



**YAP-çı deputat, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov bildirdi ki, nə xaricdən, nə daxildən iqtidara qarşı heç bir təhlükə yoxdur:** "Müxalifət həddindən çox zəifdir, sosial bazası sıfıra bərabərdir. Bunun da səbəbi odur ki, müxalifəti tərəfdarları partiyalarının yeni heç nə təqdim etmədiklərini görürlər. Xalqın üzəyindən keçənləri ardıcıl formada iqtidar həyata keçirir. Müxalifətin ölkə daxilində sosial bazasını itirdiyindən tərəfdarlarının xaricə üz tutmalarının, orada "müxalifət" olmalarının bir sıra səbəblərini görürəm. Azərbaycan iqtidarı bu istiqamətdə çox təsirli və ağıllı addımlar atıb. Bu nədən ibarət idi? Azərbaycan daxilində "Beşinci kolon" yaradılmışdı. Bu kolonun üzvlərinin çoxu xalqın milli maraqlarına xəyanət edən insanlar idi. Faktiki onlar antiazərbaycançı şəbəkənin üzvü olmaqla, ölkə daxilində fəaliyyət göstərirdilər. Bu şəbəkənin xaricdən gələn qrantlarını hökumət kəsdi. Qanun qəbul edildi ki, beynəlxalq QHT-lərdən gələn qrantlar aşkarlıq şəraitində olsun, bunlar nəyə görə verilir və kimlər alır? Eyni zamanda bu qrantlara görə onların vergi ödəmələri məsələsi həll olundu. Bu layihələr barədə xalqa informasiya verilmələri də tələb olundu. Aşkara çıxdı ki, bir sıra şəxslər külli miqdarda qrantlar alaraq, vergi vermirlər. Ölkədə kütləvi iğtişaşlar törətmək üçün müəyyən insanları hazırlayırdılar. Xaricə gedənlər isə əvvəlcədən toplantılar zamanı şəkillər çəkdirir, bunu mətbuatda dərc etdirirdilər. Bu yolla da gedib sığınacaq alırdılar. İstəmədən havayı yemək üçün hesab edirdilər ki, xaricdə yaşamaq daha yaxşıdır. Burada maraqlar da uzlaşıb. "Qan damarı" kəsildikdən sonra onlar həmin qrantları ala bilmədilər. Nəticədə xaricə getmək yolunu tutdular. Bu gün həmin "Beşinci kolon"un üzvlərdir ki, qrantlardan məhrum olublar və təəssüflər olsun ki, Azərbaycan əleyhinə fəaliyyətlərini davam etdirirlər. Xaricdə onları yaşadan anti-Azərbaycan qüvvələrinin şərtləri odur ki, ölkəmizin imicinə zərbə vuran, onu gözdən salan müxtəlif tədbirlər keçirsinlər. AŞ PA-da ölkəmizlə bağlı müzakirələr gedən, prezidentimizin Avropa ölkəsinə səfəri vaxtı bu tipli tədbirlər keçirirlər. Pula satılmış bu insanları vətən xaini hesab edirəm. Onlar pula görə bu aksiyaları təşkil edirlər. Prezidentimiz gedib Azərbaycanın ədalətli mövqeyini dünyaya çatdırır, müzakirəyə çıxarır, Azərbaycan-Ermənistan arasında dalana dirənmiş Dağlıq Qarabağ problemində beynəlxalq aləmi hərəkətə gətirmək üçün fəaliyyət göstərir, bunlar isə dövlətin və prezidentin əleyhinə çıxmaqla, ən ağrılı problemimizin həllinə mane olmaq yolunu tuturlar. Bu da əvvəlcədən planlaşdırılır. Dünya erməniliyinin təsiri ilə onlar xaricdə fəallaşıblar. Xalqımız onları yaxşı tanıyır. Onların iqtidar əleyhinə aksiya keçirmələrinə heç bir səbəb yoxdur. Azərbaycanda onlara mitinq üçün yer ayrılanda heç 100/1-ni doldura bilmirlər. Belə olan halda müxalifət xaricə üz tutub. Azərbaycan öz yolu ilə gedir. Beynəlxalq nüfuzumuz yüksəkdir. İqtisadi gücümüz ortadadır. Ölkə başçısı çox müdrik və ağıllı siyasət yürüdür".

**B.Sadıqov xaricdə keçirilən aksiyaların heç bir nəticəsinin olmayacağını düşünür:** "Onların Avropada yığışıb bir-iki aksiya keçirmələrinin nəticəsi olmayacaq. Çox təəssüf ki, tək bu aksiyalarla onlar Azərbaycan əleyhinə işləmirlər. Hazırda dünyada müsəlmanlar əleyhinə bir kampaniya gedir. Son günlərdə Türkiyəyə qarşı müəyyən təzyiq göstərmək cəhdlərini gördük. Hollandiyada baş verənlərin hamımız şahidi olduq. O insanlar həqiqətən azərbaycanlıdırsa, qanlarından türk qanı axırsa, belə məqamda heç bir azəri türkü öz dövlətinə, millətinə, din qardaşlarına qarşı çıxmalı deyil".

***P.S.** "Yeni Müsavat" İttihamlarla bağlı xaricdə yaşayan müxalifət fəallarının cavab haqqını tanıyır.*

❑ **Cavanşir ABBASLI**




# Azərbaycan vətəndaşları 62 ölkəyə vizasız səfər edir

**"Henley & Partners" şirkəti viza reytinqi açıqlayıb. Novator.az-ın məlumatına görə, reytinq cədvəlinə Almaniya başçılıq edir. Almaniya vətəndaşları 176 ölkəyə vizasız səfər edə bilir.**

İkinci yerdə İsveç qərarlaşıb. İsveç vətəndaşlarının 175 ölkəyə vizasız getmək imkanı var.

Finlandiya, İtaliya, İspaniya, ABŞ və Danimarka üçüncü pilləni bölüşürlər. Bu ölkələrin vətəndaşlarının 174 ölkəyə vizasız getmək hüququ var.

Reytinqə əsasən, Azərbaycan vətəndaşları 62 ölkəyə vizasız səfər edir. Qonşu ölkələrdən Gürcüstanın göstəricisi 69, Rusiyanın göstəricisi 106, Türkiyənin göstəricisi 105-dir.

Reytinq cədvəlinin son pillələrində Pakistan, İraq və Əfqanıstan dayanır.

YENİ MÜSAVAT
N 58 (6672) 16 mart 2017

# İqtisadçılar dolların ucuzlaşmasının səbəbini tapa bilmir

## Ekspertlər manatın məzənnəsinin sabit qalmasına niyə sevinə bilmir?

**Martın 14-də Azərbaycan Mərkəzi Bankında Dövlət Neft Fondunun da iştirakı ilə hərrac keçirilib. AMB-dən verilən məlumata görə, hərracda manatın orta çəkili məzənnəsi 1.7279 səviyyəsində formalaşıb. Mərkəzi Bankın rəsmi məzənnəsinə görə, martın 14-də 1 ABŞ dolları 1.7437 manat səviyyəsində müəyyən edilmişdi. Beləliklə, bu hərracda manat dollara nisbətən 0.91 faiz bahalaşıb. Bu il yanvarın 12-dən valyuta hərracı yeni formatda keçirilir. İndi qiymətləri bankların müəyyən etdiyi bildirilir. Prosesin dolların alışı üzrə ən yüksək qiymətdən aşağı qiymətə doğru təmin olunduğu qeyd edilir. Son hərraca qədər isə əksinə, dollar bahalaşmışdı.**

Bəs görəsən, manatın məzənnəsinin möhkəmlənməsinə iqtisadçılar necə yanaşır? Onlar bu prosesin davamlı olacağına inanırlarmı?

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov bildirdi ki, manatın möhkəmlənməsinin iqtisadi əsası yoxdur:** “Manatın möhkəmlənməsi üçün baza yoxdur. Neft kəskin bahalaşmayıb. İdxal-ixrac əməliyyatlarında müsbət saldo yoxdur. Bu müvəqqəti haldır və uzun müddət davam edə bilməz. Dollar yenidən bahalaşacaq. Manatın bu şəkildə saxlanmasının iqtisadiyyata ziyanı var. Dövriyyədə olan manat kütləsi sıxıldığı, iqtisadiyyata kifayət qədər pul buraxılmadığı üçün bu, real sektora ziyan vurur”.

**İqtisadçı ekspert Natiq Cəfərli isə hesab edir ki, səbəblər çox bəsitdir və qısa zamana hesablanıb:** “Birincisi, Mərkəzi Bank manat kütləsini azaldıb. Bu isə iqtisadi aktivliyi azaldır.



Bu gün açıqlanan rəsmi makroiqtisadi göstəricilər ölkədə böhranın dərinləşdiyini göstərir. İkincisi, Novruz bayramında İrandan və ərəb ölkələrindən 20-30 min turist gəlməsi gözlənilir, onlardan ucuz dollar almaq istəyirlər. Üçüncüsü, banklar kredit verə, verdiyi kreditləri yığa bilmirlər, bankların ən çox gəlir yeri valyuta spekulyasiyaları olub; dolları ucuz alıb, baha satmaqla ayaqda qalmağa çalışırlar”.

**İqtisadçı onu da bildirdi ki, hazırda manatın möhkəmlənməsinə sevinmək bir qədər tezdir:** “Əslində dolların ucuzlaşmağına sevinməliyik, amma mütəxəssis kimi bunun nədən baş verməsini anlamağa çalışırıq. Dollar nə zaman ucuzlaşa bilər? Ölkənin ixracatı artırsa, valyuta gəlirləri artırsa, ölkədə daxili istehsal artırsa, idxaldan asılılıq azalırsa dollar ucuzlaşa bilər. Lakin bu, amillərin heç biri hazırda müşahidə olunmur. Əksinə, FED faiz artımına gedir və dollar dünyada bahalaşır. Digər tərəfdən, neft qiymətləri kəskin ucuzlaşıb, son 10 gündə qara qızıl 12% dəyər itirib. Bundan dolayı ölkəmizin gəlirləri azalıb. Həmçinin ölkədə ilin ilk 2 ayında sənaye istehsalı 4 faiz azalıb, həmin dövrdə inflyasiya 13 faizə çatıb, ərzaq inflyasiyası 16 faiz olub. Deməli, ölkədə dolların möhkəmlənməsinin iqtisadi əsası yoxdur, əksinə, bütün iqtisadi göstəricilərə görə dollar bahalaşmalıdır. Bu iqtisadi göstəricilər onu deməyə əsas verir ki, dollar 2017-ci ildə 2 manatı keçəcək”.

**İqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov da “Yeni Müsavat”a açıqlamasında Mərkəzi Bankın bu addımının məqsədini açıqladı:** “Bayram günlərində ölkəyə xeyli turistin gələcəyi gözlənilir. Turistlər xarici valyuta gətirəcək. Həmin xarici valyutanı onlardan ucuz almaq istəyirlər ki, dövriyyədə manat kütləsi artmadan valyuta gəlirləri çoxalsın. Ümumiyyətlə, Mərkəzi Bankın manatı möhkəmlətməsi sırf manat kütləsinin kəskin azalması müqabilində mümkün olub. İstənilən əmtəənin miqdarını azaltsan, təbii, dəyəri artacaq. Bayram günlərində bank şöbələrinin çoxu işləməyəcək. Bu da imkan verəcək ki, işləyənlər dolların alış və satış qiymətləri arasında kəskin fərq tətbiq etsin. Yəni dolları ucuz alıb, baha satacaqlar. Düzdür, belə olsa, qara bazar da fəallaşa bilər. Hətta xaricilər də qara bazara üz tuta bilər bu halda. Çünki orada alış-satış fərqi çox olmayacaq. Ümumən isə əlbəttə ki, Mərkəzi Bankın bu siyasəti çox çəkməyəcək. İqtisadiyyata pul lazımdır. Hətta bəzi dövlət orqanları da əmək haqlarını aylarla vermir, çünki pul çatışmır. Ödəniş sistemi iflic olub: heç kəsin borcunu ödəmir, pulunu dollara çevirib devalvasiyanı gözləyir. Mərkəzi Bankı əvvəl-axır banklara kredit verib manat kütləsini artırmağa vadar edəcəklər və o zaman devalvasiya davam edəcək. Sadəcə, Mərkəzi Bankın indiki siyasəti iqtisadiyyata elə böyük ziyan vurur ki, bədəli çox ağır olacaq. İqtisadiyyatı pulsuz qoymaq insan orqanizmini qansız qoymağa bərabərdir. Son 2 ildə Mərkəzi Bank real manat kütləsini 4 dəfə (75 faiz) azaldıb. İnsan 20 faiz qan itirəndə artıq ölə bilər. İndi təsəvvür edin ki, iqtisadiyyatımız Mərkəzi Bankın mərhum Oqtay Haqverdiyevin təbirincə desək, bu ”lazımsız oyunları"ndan necə əziyyət çəkir".

❑ **Nərgiz LİFTİYEVA**

# 6 il əvvəl başlayan “ərəb baharı” Azərbaycanda da olsaydı...

## Siyasi ekspertdən maraqlı açıqlamalar: “Azərbaycan vətəndaşları sabitliyi və təhlükəsizliyi hər şeydən üstün tutur”

**2011-ci ilin mart ayının bu günləri “Ərəb baharı” adlanan inqilabların tüğyan etdiyi günlər idi. Misirdə, Liviyada, Tunisdə məhz bu zamanlar məlum inqilablar baş verdi. Həmin dövrlərdə Azərbaycanda da “ərəb baharı”ndan ilhamlananlar var idi. Müəyyən cəhdlər olsa da Azərbaycanda bu, alınmadı. İnqilabların baş verdiyi ölkələrin isə sonrakı taleyi məlumdur. Bu ölkələrin bəziləri silahlı qruplar arasında bölünüb, sabitlik yox, iqtisadiyyat çöküb, ölkədə silahlı qruplar meydan sulayır, saysız-hesabsız insan ölümü baş verib və bu proses hələ də davam edir. Əgər Azərbaycanda da “ərəb baharı” dalğasında inqilab baş versəydi, indi bizim ölkənin durumu necə olardı?**

**Politoloq Elçin Mirzəbəyli** bildirdi ki, həmin dövrdə “ərəb baharı” Yaxın Şərqin, Aralıq dənizi hövzəsinin enerji resurslarına və strateji nəqliyyat dəhlizlərinə sahiblənmək üçün həyata keçirilən bir ssenari idi: “Bunu hələ o zamanlar mənim kimi bir çox ekspertlər də vurğulayırdılar. Azərbaycanda ”ərəb baharı"ndan ilhamlanan bir qrup insan isə uzun illər boyu siyasətdə olduqlarına baxmayaraq, elementar təhlil imkanları olmayanlar idi. Onlar Gürcüstanda, Qırğızıstanda, Ukraynada baş verən hadisələr zamanı da vədə gəlmişdilər və nəticədə xəyal qırıqlığına uğradılar. Azərbaycanda “ərəb baharı” ssenarisinin gerçəkləşməsi üçün heç bir fundamental əsas yox idi. Bizim bəzi müxalifət nümayəndələrinin problemi ondadır ki, mövcud iqtidara qarşı irəli sürdükləri ittihamları həddindən artıq, bəzən isə ifrat dərəcədə şişirdilmiş çatışmazlıqlar üzərindən dilə gətirirlər. Digər problemləri isə ondadır ki,


Elçin Mirzəbəyli

sonradan iqtidara qarşı apardıqları təbliğatda istifadə etdikləri mübaliğəli, bir az yalan, bir az böhtan qarışıq məsələlərə özləri də inanmağa başlayırlar. Yəni özləri öz təbliğat kampaniyalarının subyektinə çevrilirlər. Beləliklə, reallıq hissi itir və nəticədə növbəti xəyal qırıqlığı, siyasi depressiyalar başlayır".

**Ekspert vurğuladı ki, “ərəb baharı”nın gerçəkləşməsi üçün Azərbaycanda münbit şərait yox idi. Bunun isə ciddi səbəbləri var idi:** “Çünki siyasi hakimiyyət güclü idi, Azərbaycan vətəndaşları sabitliyi və təhlükəsizliyi hər şeydən üstün tuturdular, xalqın mədəni və intellektual səviyyəsi ərəb ölkələrində baş verənlərdən nəticə çıxarmağa imkan verirdi, Azərbaycanda həyat səviyyəsi ”ərəb baharı"nın gerçəkləşdiyi ölkələrdən müqayisəolunmaz dərəcədə üstün idi, regiondakı geosiyasi amillər ölkə daxilindəki proseslərə açıq və kobud şəkildə müdaxilə olunmasına imkan vermirdi və s.

Bu reallıqlar indi dəyişməyib. Əgər “ərəb baharı” ssenarisi olaraq inqilab Azərbaycanda baş versəydi, bu, hətta ölkənin müstəqilliyinin də şübhə altına düşməsinə imkan yarada bilərdi. Yaranmış vəziyyətdən bütün kənar düşmən qüvvələr, o cümlədən Ermənistan yararlanmağa çalışardı. Amma şübhəsiz ki, bütün bunlar Azərbaycan reallığına uyğun gəlməyən fantastik fərziyyələrdir. Azərbaycan oturuşmuş dövlətdir, həmçinin xalqın dövlətçilik şüuru da yüksək səviyyədədir. Bu baxımdan, belə ssenarilərin nə bu gün, nə də sabah gerçəkləşə biləcəyini düşünmürəm. Lakin bu o demək deyil ki, başımızı yastığa qoymalı, real təhlükələrə və çağırışlara hazır olmamalıyıq".

❑ **Etibar SEYİDAĞA**

# “Nə SSRİ-ni yenidən qurmaq planımız, nə də...” - Lavrov

**“Rusiyanın nə SSRİ-ni yenidən qurmaq planları, nə də hər hansı imperiya ambisiyaları var”.**

APA-nın “RİA Novosti”yə istinadən verdiyi məlumata görə, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov deyib.

Lavrovun qənaətinə görə, Rusiyanın imperiya ambisiyalarının olması və SSRİ-ni yenidən qurmaq planları barədə fikirlər fantastika janrına aiddir və ciddi qəbul edilməməlidir. Onun sözlərinə görə, Rusiya keçmiş sovet respublikalarının müstəqillik seçiminə həmişə hörmətlə yanaşıb: “Biz onlarla əməkdaşlığı müxtəlif formatlarda maraqların qarşılıqlı nəzərə alınması və bərabərlik prinsipləri əsasında qururuq”.

Lavrov həmçinin bildirib ki, Rusiya postsovet məkanı ölkələrinə, xüsusilə Mərkəzi Asiya dövlətlərinə ciddi yardım göstərir: “On il ərzində Rusiya Mərkəzi Asiya dövlətlərinə 6,7 milyard dollar məbləğində yardım edib. İkitərəfli əsasda təmənnasız maliyyə yardımı 4 milyard dollardan çox olub. Yardımın həcmi BMT xətti ilə - 570 milyon, Dünya Bankı və digər strukturların xətti ilə isə 1,3 milyard dollar, Avrasiya İqtisadi Birliyinin xətti ilə 592,3 milyon dollar təşkil edib”.



# Sökən kim, tikən kim...

Zamin HACI
zaminhaci@gmail.com

"Arxasız arxitektora qurd düşər"
*(Modern ata sözü)*

**Dünənki yazımda YAP rejiminin Rusiya hakimiyyətini yamsıladığını göstərmişdim, bir təzə fakt yadımdan çıxmışdı, indi onu əlavə edim. (Çox qəribədir ki, əslində o temanı mənə elə həmin fakt vermişdi, niyə yazarkən yadımdan çıxıb, heç anlaya bilmirəm). Moskvada 8 minə yaxın "xruşşovka" binalar var, bu ilin martında şəhər rəhbərliyi Putinin və Dumanın qərarları ilə həmin binaları sökmək, yerində təzə binalar tikmək planına start verib. Doğrusu, proje o qədər nəhəngdir ki, ruslar özləri bunun haçansa başa çatacağına şübhə edirlər.**

Bax, rusların bu qərarından heç bir həftə ötməmiş bizdə də Bakının "xruşşovka"larını sökmək üzrə dövlət planı ortaya çıxdı. Deyirlər ilk olaraq 1-ci mikrorayondan başlayıb sökəcəklər. İşlər isə çox qəribədir ki, Fövqəladə Hallar Nazirliyinə tapşırılıb. Doğrusu, biz bu quruma dəxli olan-olmayan hər bir dövlət sifarişinin verildiyini indiyə qədər dəfələrlə müşahidə eləmişik. FHN az qala musiqi yarışları və məktəblilər arasında inşa müsabiqələri də keçirdir. *("Az qala" ifadəsini ironiya üçün yazmışam, çünki nazirlik bunları doğrudan edibdir)*. İndi mikrorayonun sökülməsi də fövqəladə hal olmayıb, bəs nədir? Əslində bizdə evdə qaz yandırmaqdan Sumqayıta avtobusda getməyə qədər hər şey fövqəladə haldır, bundan insanlar ölürlər. Sadəcə, indiki kasıb vaxtımızda bəzi dövlət qurumlarını yemləyib saxlamağımız mənasız görünür. Əgər Bakı şəhərinin böyük bir ərazisinin yenidən qurulması, tikinti planlaşdırması FHN-ə tapşırılıbsa, Hacıbala əkənin rəhbərlik etdiyi, heyvərə bir aparatdan ibarət Bakı Şəhər İcra Hakimiyyəti nəyə lazımdır? Bunlara niyə maaş verilir?

Eynilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin artıq qurum olduğu göz deşir. Sizi əmin edirəm ki, zəhmətkeşlərimizin çoxu ölkədə belə dövlət idarəsi, komitə olduğunu ümumiyyətlə bilmir. Şəxsən mən özüm jurnalist sayılsam da, bu komitənin nə işlə məşğul olduğundan tamam bixəbərəm və elə bu yazını yazanda maraqlandım ki, görüm sağdırlarmı, bəlkə ləğv olunub, heç xəbərimiz yoxdur? Yaşayırmışlar. Hətta komitənin arxkom.gov.az adlı gülməli internet səhifəsi də var imiş, məsləhət görürəm, kefiniz pozulanda baxın. Misal üçün, səhifəni açan kimi lap başdan komitənin sədri Abbas Ələsgərovun intervüsü gözə girir, onun birinci cümlələri isə elə bu cürdür:

"- Müsahibəyə belə başlamaq istərdim ki, Abbas Ələsgərov Bakı şəhərində nəyi dəyişmək istərdi?

Nə etmək olarsa, hər şey edilib..."

Hər şey edilibsə, bəs sən niyə maaş alırsan? Bir məmur özünün heç bir işə yaramadığını daha necə ifadə etməlidir? Özü də Abbas müəllimin sonrakı cümləsi onun vəzifəsinə ümumiyyətlə yer qoymur: "Bu gün Bakıda gördüyümüz bütün dəyişikliklərin əksəriyyəti məhz prezident İlham Əliyevin adı ilə bağlıdır".

Böhran bizi hər tərəfdən bürüyübdür, "artıq ətləri" kəsmək vaxtıdır. Mən təklif edərdim Arxitektura Komitəsi, Bakı ŞİH və Kənd Təsərrüfatı Nazirliyi vahid idarədə birləşdirilsin, adını da çox fikirləşib baş ağrıtmaq lazım deyildir - ASAN-xidmət-2 qoyaq.

Təsəvvür edin, Statkom bu günlərdə Ümumi Daxili Məhsulun 2017-ci ilin 2 ayı ərzində artım tempini açıqlayıbdır, bu, cəmi 0,8 faiz olubdur! Ey gidi dünya... Vaxt var idi neftin bareli 110 dollar ətrafında cövlan edirdi, bizim ÜDM-in artımı isə bəzi illərdə 30 faizə çatmışdı. Yanılmıramsa, 2006-cı ildə hətta 35 faiz olmuşdu! Sıfır onda səkkiz nədir, a kişi? Bunu xalqa açıqlamaqdansa elə o sıfırdan bir ilgək düzəlt, özünü as.

Görün gəmi nə təhər batırsa onu siçovullar da artıq tərk etməyə başlayıbdır. Hökumətyönlü "İrəli" gənclər təşkilatının sədri olmuş Rauf Mərdiyev adlı cavan namərdlik edib ABŞ-a qaçıbdır. Pul çox olanda bu yaltağın səsi Bakıdakı kabinetlərdən gəlirdi, indi pul yoxdur, aradan cırıb. Əsl yapist-patriotun siması budur. "İrəli" deyəndə Amerikaya doğru irəliləyib qaçmağımı nəzərdə tuturmuş? Əlbəttə. Avamlar bunu başa düşmürdülər. Şirə harda, milçək orda. Vətən-mətən kasıbların uşaqları üçün hazırlanmış "xruşşovka" layihəsi fason bir şeydir. Müddəti keçdi, sök getsin. Hər yüz ildən bir Azərbaycanın bir hissəsini sökürlər. İndi "xruşşovka" olmaq Qarabağın bəxtinə düşüb...

# Düşmən ölkə daxilində seçkiöncəsi kritik gəlişmə




# Ermənistan vətəndaş müharibəsi astanasında

## Ohanyanın seçki blokuna qarşı silahlı hücuma keçən Sərkisyan hakimiyyətinə Qarabağdakı qanunsuz "ordu"nun keçmiş rəhbərindən ultimatum gəldi; **Tofiq Zülfüqarov:** "Qarşıdurma qaçılmaz olacaq..."

**Parlament seçkilərinə yarım ay qaldığı bir ərəfədə Ermənistanda kifayət qədər gərgin situasiya hökm sürməkdədir. Özü də işğalçı ölkədə normal cəmiyyətlərdə olduğu kimi seçki təbliğat-təşviqat kampaniyası deyil, qətl və terrorla hədələmə halları daha çox diqqət çəkir.**

Ermənistanın sabiq müdafiə naziri Seyran Ohanyanın ardınca qondarma "DQR"in "sabiq müdafiə naziri" Samvel Babayan da Serj Sərkisyan hakimiyyətini hədələyib. Babayan üç gün əvvəl Ermənistanın Armavir rayonunun Crarat kəndində hakimiyyətin adamları ilə müxalif "üç O..." blokunun ("Ovanisyan-Raffi-Oskanyan") tərəfdarları arasında baş vermiş atışmaya sərt reaksiya verib. Virtualaz.org xəbər verir ki, o, "Haykakan Jamanax" qəzetinə açıqlamasında hakimiyyətə ultimatum göndərib.

"Hakimiyyətə məsləhət görmürəm ki, bizim alyansa qarşı çıxsın, çünki onlar atəş açmaqla heç nəyə nail ola bilməyəcəklər. Əgər bu gün onlar atəş açırsa, sabah digər tərəf də atəş açar və o zaman heç kim onları sağ-salamat tapa bilməyəcək" - Babayan deyib. Keçmiş "müdafiə naziri" bildirib ki, əgər belə davam etsə, qan axıdılacaq. "Mən bilirəm ki, digər tərəf də geri çəkilən deyil, ona görə də hansısa yolla özümüzü müdafiə etməliyik. Əgər sən insanlara atəş açırsansa, vacib deyil kimsən, polissən, yoxsa nəsən və hakimiyyət səni cəzalandırmırsa, o zaman qarşı tərəf də hərəkətə keçməyə məcburdur. Axı sonda o da canlı insandır" - Babayan hakimiyyətin ünvanına hədələri davam etdirib.

Qeyd edək ki, Babayan hazırda keçmiş müdafiə naziri Seyran Ohanyanın başçılıq etdiyi blokun fəaliyyətini koordinasiya edir. Ancaq onun S.Ohanyanın yanında yer alması, üstəlik, ultimatumla çıxış etməsi həm də ondan xəbər verir ki, ötən ilin aprel döyüşlərindən sonra S.Sərkisyanın "zərərsizləşdirdiyi" keçmiş hərbçilər onu sakit buraxmaq niyyətində deyillər. 2-5 aprel döyüşlərində Ermənistanın işğal altındakı hərbi birləşmələri həm hərbi texnika, həm də canlı qüvvə sarıdan ciddi itkilər verdikdə S.Sərkisyan baş verənlərin məsuliyyətini müdafiə naziri S.Ohanyanın üzərinə qoyub özünü xalqın qəzəbindən, xüsusilə də özgə torpaqlarında məhv edilmiş əsgərlərin yaxınlarının əlindən xilas edə bildi. Hətta o zaman S.Sərkisyanla S.Ohanyan arasında mətbuat döyüşü də oldu. Üstəlik, Qarabağdakı "erməni könüllüləri" S.Sərkisyana deyil, S.Ohanyana tabe olduqlarını nümayiş etdirdilər. Vəziyyətin gərginləşdiyini görən Ermənistan prezidenti İrəvanda "silahlı üsyan", həmçinin "Rusiyaya qarşı etiraz aksiyaları" kimi tamaşaları qurmaqla diqqəti özündən yayındıra bildi və daha sonra S.Ohanyan daxil olmaqla, hökumətin bir sıra üzvləri ilə yollarını ayırdı. Ancaq cəmi bir neçə ay sonra keçmiş nazir siyasətə baş vurduğunu açıqladı, üstəlik, Sərkisyana meydan oxudu.

Ermənistan prezidenti S.Sərkisyan S.Ohanyanın iddialı bəyanatlarının qarşılığında onu korrupsiyada ittiham etməyə başlasa da, bu ittihamların davamı gəlmədi. Ohanyan faktorunun təhlükəsini anlayan S.Sərkisyan güman ki, onu "sadə etirazçıların əli ilə" aradan götürmək istəyir. Xəbər verildiyi kimi, Seyran Ohanyanın Crarat kəndində seçicilərlə görüşü zamanı kənd administrasiyasının rəhbəri, Ermənistanın polis rəisinin müavini Levan Yeranosyanın qohumu, hakim Respublika Partiyasının üzvü Samvel Qalstyan Ohanyanın tərəfdarlarını hədələməyə başlayıb və onun tərəfdarlarından biri tapançanı çıxararaq Ohanyanın adamlarına tərəf atəş açıb. Buna cavab olaraq Ohanyanın adamları Qalstyanı zərərsizləşdiriblər. Dava düşüb və hər iki tərəfdən xəsarət alanlar var.

S.Ohanyana qarşı hücumlara onun hərbçi yoldaşının, özü də "Qarabağ klanı"nın təmsilçisinin sərt reaksiya verməsi həm də o anlamı kəsb edir ki, deməli, Ermənistan ordusunun tərkibində sabiq nazirin kifayət qədər dayaqları var. Eyni zamanda Qarabağdakı hərbi birləşmələrdə də həm Ohanyanın, həm də sabiq "nazir" Babayanın adamları olmamış deyil. Son ultimatum həm də Sərkisyana silahlı üsyan xəbərdarlığıdır. Qarşıdakı seçkilərin nə qədər əhəmiyyətli olduğunu tərəflərin hər biri yaxşı anlayır. Bu seçkilərin qalibi olan siyasi qüvvə ölkəni idarə edəcək. Çünki 2018-ci ildən Ermənistan parlament üsul-idarəçiliyinə keçir. S.Sərkisyan isə gələn il keçiriləcək prezident seçkilərinə "hazırlıqlı" getmək istəyir. Belə ki, o, baş nazir kreslosuna oturub bütün səlahiyyətləri əlində cəmləməyə çalışır. Ümumiləşdirsək, həm Sərkisyan hakimiyyəti, həm də onun əleyhdarları, xüsusilə də hakimiyyətin qəzəbinə tuş gələn qüvvələr aprel seçkilərinə "ölüm, qalım" şansı kimi baxır.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov təsdiqlədi ki, Ermənistanda vəziyyət hər an nəzarətdən çıxa bilər:** "Ötən ilin aprel döyüşlərindən sonra Ermənistanda ən məşhur bir zarafat var idi, onlar deyirdilər, bu hadisələrdən Azərbaycan və Sərkisyan uddu. Sərkisyan ona qarşı duranlardan, daxili düşmənlərdən, Ohanyan kimi hərbçilərdən, keçmiş baş nazir və ona yaxın adamlardan azad oldu. Ancaq sonra başa düşdü ki, seçkilərdə ona rəqib olan şəxslər də əsasən bunlardır. Vəzifədən azad olunanlar bu gün birləşib. Üstəlik də erməni cəmiyyətində gərginlik kifayət qədər artmaqdadır. Bu mənada ənənəvi olaraq onlar yenə də silahdan istifadə edə bilərlər. Ənənəvi ona görə deyirəm ki, Ermənistanda siyasi mədəniyyət yox dərəcəsindədir. Təcrübə də sübut edir ki, qarşı duran düşərgələr bir-birinə qarşı vaxtaşırı silah çəkirlər. Həm 1999-cu ildə Ermənistan parlamentindəki hadisələr, həm də 2008-ci ildəki prezident seçkiləri zamanı qanlı hadisələrin şahidi olduq. Ənənəvi olaraq bunlarda məsələlər bu şəkildə, silahla "həll" olunur".

**T.Zülfüqarov istisna etmir ki, seçki prosesləri erməni ordusunu da parçalaya bilər:** "Hələ ki Ohanyanın adamları hakimiyyətdə qalır, onlar tam uzaqlaşdırılmayıb. Üstəlik, bu, Sərkisyan-Ohanyan oyunu deyil, ciddi məsələdir. Onların əvvəldən bir-biri ilə ciddi problemlər var idi. Özü də hər iki tərəf Rusiyaya bağlıdır, diasporda da tərəfdarları var. Deməli, erməni diasporunda da qarşıdurma yaşana bilər". **Sabiq nazir əllərdə kifayət qədər silahın olduğunu da istisna etmir:** "Bunlar Qarabağ quldurlarıdır, quldur təfəkküründə də qalırlar, kifayət qədər də silahlar əldə ediblər. Bir gün o silahlar bir-birinə qarşı çevrilə bilər. Sərkisyan artıq hakimiyyətdən getməli idi, amma konstitusiya islahatları aparır ki, baş nazir olaraq qalsın. Bunu isə onun əleyhdarları həzm etmək niyyətində deyillər. Deməli, qarşıdurma qaçılmaz olacaq".

S.Sərkisyanın ölkədəki proseslərin nəzarətdən çıxmaması üçün Rusiyadan yardım istəyəcəyi şübhəsizdir. S.Ohanyanın Moskvaya bağlı olması erməni prezidentin işini çətinləşdirir. Artıq Serjik Rusiyadan Avropaya donosbazlıq etməklə öz etimadını itirib. Bu mənada Rusiyanın Ohanyana dəstək verməsi də mümkündür. Üstəlik, Qarabağ separatçıları Rusiyanın iradəsindən kənar davranmağa cürət etməz. İşarəni Moskvadan gözləyən Sərkisyan əleyhdarlarının fəallaşması təsadüfi deyil.

Bu arada Rusiya prezidenti Vladimir Putinin Moskvada səfərdə olan Ermənistan rəhbəri Serj Sərkisyana sətiraltı dediklərı də diqqət çəkir. "Serj Azatoviç, bilirik ki, bizim görüşümüz Ermənistandakı iri daxili siyasət hadisəsi ərəfəsində keçirilir. Aprelin 2-də parlamentə seçkilər nəzərdə tutulur və bütün bunlar üstəlik, konstitusiya islahatı ilə bağlıdır. Proses belə görünür ki, sadə deyil, lakin əminəm ki, Ermənistan sizin rəhbərliyiniz altında bu inkişaf mərhələsini də keçəcək" - Putin deyib.

"Proses belə görünür ki, sadə deyil" sözləri ciddi eyhamdır. Putin erməni həmkarına başsağlığı verirmiş kimi davranıb...

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 58 (6672) 16 mart 2017

# Parisdə yüksək səviyyəli Azərbaycan-Fransa danışıqları - Ermənistanı məyus edən nəticə

## Prezident İlham Əliyev fransalı həmkarına işğalla bağlı çağırış etdi: “Biz də bunu deyirik və istəyirik ki, tezliklə status-kvo dəyişdirilsin və münaqişəyə son qoyulsun”; ekspertlərdən Fransa səfəri barədə ilginc şərhlər



**Azərbaycan prezidenti İlham Əliyev Fransaya işgüzar səfəri çərçivəsində fransız həmkarı Fransua Ollandla görüşüb. Rəsmi məlumata görə, sənədlərin imzalanması mərasimindən sonra prezidentlər mətbuat qarşısında bəyanatla çıxış ediblər.**

Fransa prezidenti Fransua Olland “mən prezident Əliyevi böyük məmnuniyyətlə qəbul edirəm. O, artıq Parisə gəlib. Biz münasibətlərimizin əsasını qoymuşuq. Eyni zamanda biz digər kontekstdə - Dağlıq Qarabağ münaqişəsinin həlli yolunu tapmaq haqqında da danışdıq. Bu gün prezident Əliyev Parisdədir və biz keçdiyimiz yollara, gələcəkdə görməli olduğumuz işlərə nəzər saldıq”, - deyə çıxışına başlayıb. **Fransa lideri qeyd edib ki, Azərbaycan və Fransa arasında bir çox sahələrdə, xüsusilə siyasi sahədə yaxşı əlaqələr var. Azərbaycanla Avropa İttifaqı arasında Şərq Tərəfdaşlığı çərçivəsində danışıqları Fransanın ilk gündən dəstəklədiyini deyən Olland ardınca Qarabağ məsələsindən bəhs edib:** “Biz bu haqda danışdıq və bildirdik ki, mövcud status-kvo qəbuledilməzdir. Risklər var və biz bunu keçən ilin aprel ayında baş verən insidentdən də gördük. Biz danışıqların yenidən bərpa olunmasını arzulayırıq. Minsk Qrupunun həmsədri kimi istəyirik ki, digər həmsədrlər - ABŞ və Rusiya da bu prosesə töhfə versin. Düşünürük ki, parametrlər bəllidir və uzun müddətdir davam edən bu münaqişənin həlli yolunu tapmaq mümkündür. Hesab edirik ki, hər dəfə sülhə töhfəmiz beynəlxalq səviyyədə həyata keçirmək istədiyimiz fəaliyyətin və qurmaq istədiyimiz münasibətlərin məğzidir. Xüsusilə də gərginliklər olanda və hazırda Avropa ilə Türkiyə arasında olan vəziyyətdə. Bizim rolumuz aydın şəkildə bildirməkdir ki, nəyi qəbul edirik, nəyi qəbul etmirik. Avropa ilə Türkiyə arasında olan münasibətlərin sabitləşməsi üçün də töhfəmizi verməliyik. Digər mövzularda olduğu kimi, bu mövzu ilə də bağlı dialoqu təşviq etməliyik”.

**Azərbaycan prezidenti İlham Əliyev isə çıxışında ilk növbədə F.Ollanda dəvətə, özünə və nümayəndə heyətinə göstərdiyi qonaqpərvərliyə görə minnətdarlıq edib:** “Yenidən Fransada olmaqdan çox məmnunam. Siz Azərbaycanda iki dəfə səfərdə olmusunuz. Bu, əslində Fransa-Azərbaycan əlaqələrinin bir göstəricisidir. Aramızda inkişafda olan siyasi dialoq çox fəal mərhələyə qədəm qoyub. Biz bu gün də bu dialoqu davam etdiririk. Görürük ki, bir çox məsələlərlə bağlı bizim mövqeyimiz üst-üstə düşür. Əlbəttə ki, güclü siyasi əlaqələr bütün sahələrdə inkişafda olan əlaqələrə də müsbət təsir göstərir”.

**Dövlət başçısı Ollandın diqqətini Qarabağ məsələsinə, Ermənistanın işğalçılıq siyasətinə cəlb edib:** “Fransa Minsk Qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda öz səylərini göstərir. Biz bu səyləri yüksək qiymətləndiririk. Xüsusilə mən 2014-cü ilin sonlarında sizin təşəbbüsünüzlə bu Yelisey sarayında Ermənistan prezidenti ilə keçirdiyim görüşü qeyd etmək istəyirəm. Çox konstruktiv və müsbət bir görüş idi. Əfsuslar olsun ki, bu görüşdən sonra danışıqlar prosesində müəyyən durğunluq müşahidə olundu. Biz istəyirik ki, məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə öz həllini tapsın. Ermənistan beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan torpaqlarını uzun illərdir ki, işğal edib. Dağlıq Qarabağı və onun ətrafında yerləşən yeddi bölgəni işğal altında saxlayır. O bölgələrdən bütün Azərbaycan əhalisi, yüz minlərlə insan qovulub. Orada bütün infrastruktur və binalar dağıdılıb. ATƏT-in faktaraşdırıcı missiyaları işğal edilmiş torpaqlara iki dəfə səfər edib və öz məruzələrində bunu ifadə ediblər. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul edib. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. O qətnamələr 1990-cı illərin əvvəllərində qəbul edilib. Ermənistan bu qətnamələrin icrasına görünür ki, meylli deyil. Ona görə birinci mərhələ üçün hazırda tezliklə danışıqlar bərpa edilməlidir. Ermənistan danışıqlardan boyun qaçırmamalıdır. Cənab prezident Ollandın qeyd etdiyi kimi, status-kvo qəbuledilməzdir. Minsk Qrupuna həmsədr olan ölkələrin prezidentləri - Fransa, Rusiya və Amerika prezidentləri bir neçə dəfə deyiblər ki, status-kvo qəbuledilməzdir. Biz də bunu deyirik və istəyirik ki, tezliklə status-kvo dəyişdirilsin və münaqişəyə son qoyulsun, bölgəmizdə sülh təmin edilsin və Azərbaycan köçkünləri öz doğma torpaqlarına qayıda bilsinlər”.

**Dövlət başçısı Fransa şirkətlərinin Azərbaycan iqtisadiyyatına 2 milyard dollardan çox sərmayə qoyduğunu deməklə yanaşı, iki ölkə arasındakı hərtərəfli əlaqələrdən də bəhs edib.** “Əminəm ki, Fransa-Azərbaycan əlaqələri gələcəkdə daha da möhkəmlənəcək. Bu gün apardığımız danışıqlar belə deməyə əsas verir. Biz çox istəyirik ki, əlaqələr daha da yüksək səviyyəyə qalxsın, beləliklə, Fransa və Azərbaycan xalqları bir-birinə daha da yaxın olsunlar” - İ.Əliyev əlavə edib.

***

Görünən budur ki, Ermənistan prezidentinin və erməni lobbisinin Bakı-Paris münasibətlərini korlamaq və əlaqələrə xələl gətirmək istiqamətində cəhdləri növbəti dəfə iflasa uğrayıb. Azərbaycan prezidentinin Qarabağla bağlı prinsipial mövqeyinin qarşılığında F.Olland “status-kvo qəbulolunmazdır” deməklə əslində Ermənistanın işğalı davam etdirmək niyyətinə zərbə vurdu. Bununla Olland həm də bir müddət əvvəl Azərbaycanda Qarabağ ermənilərinin statusu ilə əlaqədar narazılıqla qarşılanan mövqeyinə düzəliş etmiş oldu. Ümumilikdə Ermənistanı məyus edən nəticədir. S.Sərkisyan bir az öncə Parisdən qayıdanda yəqin ki, Ollandın belə bir mövqe sərgiləyəcəyini gözləmirdi.

**Politoloq Arzu Nağıyev dövlət başçısının səfərini yüksək dəyərləndirdi:** “Avropanın belə bir siyasi burulğanlı vaxtında Azərbaycan prezidenti cənab İlham Əliyevin səfəri həm Azərbaycan, həm də region dövlətləri üçün əhəmiyyət kəsb edən görüş kimi dəyərləndirilə bilər. İlk öncə onu qeyd etmək lazımdır ki, Fransada gələn ay prezident seçkiləri keçiriləcək və bu ərəfədə Ollandın vəzifəsini tərk etməsi gözləniləndir. Hazırda seçkiöncəsi platformalarla bu dövlətin gələcək planlarını dəyərləndirmək və buna uyğun siyasət qurmaq mühüm məsələdir. Digər tərəfdən, Türkiyə ilə bir sıra Avropa dövlətləri arasında yaşanan gərginliklərdə də Azərbaycan mühüm nəticələr çıxara bilər və hətta deyərdim ki, mühüm rol oynaya bilər. Bu isə Azərbaycanın mühüm bir aktyor olduğunu gündəmə gətirə bilər”.

**Ekspertin sözlərinə görə, Paris səfərində Qarabağ məsələsinin də önəmli yer tutduğunu unutmaq olmaz:** “Cənab İlham Əliyevin keçirdiyi görüşlərdə iqtisadi məsələlərlə yanaşı, Dağlıq Qarabağ məsələsinin də daim gündəmə gətirilməsini görürük və bu da ATƏT-n Minsk Qrupunun həmsədrlərindən biri olan Fransanın rolunu daha da mükəmməl edə bilər. Bundan başqa, Ermənistan prezidentinin bir müddət əvvəl assosiativ sazişin imzalanması ilə bağlı Avropada olması və Ollandla görüşdə məhz həmin sazişdə "milli müqəddəratın təyin edilməsi" məsələsini qabartmağa çalışmasını unutmaq olmaz. Düşünürəm ki, Azərbaycan prezidentinin Ollandda görüşü zamanı bunun qarşısı alınacaq. Bir sözlə, səfər çox mühüm və Azərbaycan üçün istər siyasi, istər iqtisadi və digər bir sıra vacib məqamların həllinə təkan verə bilər".

**A.Nağıyev bu səfərin Qarabağla bağlı prosesə təsirlərindən də bəhs etdi:** “Bu səfər eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı atılan addımlara da başqa prizmadan yanaşmaqla yadda qaldı. Azərbaycan prezidentinin Ermənistan dövləti və onun başçısının fikirləri ilə bağlı verdiyi bəyanatlar da xüsusi qeyd edilməlidir. Çünki bu bəyanat birbaşa Fransa dövlətinin ən inkişaf etmiş iqtisadi layihələr həyata keçirən şirkətlərinin rəhbərləri ilə birbaşa təmas vaxtı oldu. Yəni həm sərmayə yatırımları ilə bağlı, həm də siyasi əhəmiyyət kəsb edirdi. Məlumdur ki, Oland hakimiyyətinin son aylarını yaşayır. Lakin Fransa dövlətinin mövqeyi tək onunla bağlı deyil. Tam əminliklə demək olar ki, bu səfərdən sonra müəyyən fəallıq müşahidə olunacaq”.

**Azərbaycan Demokratiya və Rifah Hərəkatının rəhbəri iqtisadçı-alim Qubad İbadoğlu isə “Yeni Müsavat”a prezidentin Paris səfərinin iqtisadi əhəmiyyəti barədə danışdı. Bildirdi ki, Azərbaycanla Avropa arasında yaxınlaşmanı müsbət dəyərləndirir:** “Hesab edirəm ki, bu səfər siyasi cəhətdən çox əhəmiyyətlidir. Azərbaycan iqtisadiyyatı üçün indiki çətin şəraitdə avrointeqrasiyadan faydalanma çox əhəmiyyətlidir. Belə səfərlər və görüşlər o istiqamətə töhfə verir. Amma nəzərə alaq ki, xarici və iri investorların qərarları vədlərə əsaslanmır. Onlar ölkəyə daxil olanda onun investisiya şəraitini öyrənir və riskləri göz altına alırlar. Azərbaycan hələ də risk zonasından çıxmayıb. Bunun üçün islahatlar aparılmalı, əlverişli biznes mühiti üçün çox işlər görülməlidir. İnvestorlar çox həssasdırlar. Onlar üçün ən vacibi qarantiya və təminatlı bazardır. İndiki şərtlərlə Azərbaycan iqtisadiyyatı bunu təmin edə bilməsə də istənilən halda xarici sərmayəçilərlə görüşüb, onları ölkəyə dəvət etmək çox vacibdir”.

**Q.İbadoğlu qeyd etdi ki, Azərbaycanla Fransa arasındakı ticarət əlaqələrinin dinamikası mənfidir:** “Əgər 2015-ci ildə Azərbaycandan Fransaya 864,1 milyon dollarlıq məhsul ixrac olunmuşdursa, ötən il 493,6 milyon dollar olub, nəticədə bir ildə Fransaya ixracat 43 faiz azalıb. İdxalda da eyni trend müşahidə edilir. Belə ki, 2015-ci ildə Fransadan Azərbaycana 212,2 milyon dollar, 2016-cı ildə isə 150,4 milyon dollarlıq mal gətirilib və idxal əməliyyatları da 30 faiz azalıb”.

**İri şirkətlərlə keçirilən görüşlərə gəldikdə, iqtisadçı alim dedi ki, bu görüşlər arasında "Total" şirkəti ənənəvi görüşlərdən sayıla bilər:** “Digərlərinə gəlincə, onlar Azərbaycana yox, Azərbaycan həmin şirkətlərə sərmayə qoyur. Yəni AZAL-ın təyyarə parkının təzələnməsi üçün "Airbus"dan yeni təyyarələr alına bilər. Azərbaycan hələ kosmik tədqiqatla töhfə vermək səviyyəsində elmi-texniki nailiyyətlərə malik deyil. "Thales International”a gəlincə, onlar da kosmik tədqiqatlarla yanaşı, müdafiə və təhlükəsizlik, nəqliyyat və elektrik sisteminin yenidən qurulması ilə məşğul olurlar. Azərbaycanın “Thales International”ın sərmayələrinə ehtiyacı var. Əgər bu şirkət Azərbaycana gələrsə, iqtisadiyyata töhfə verə bilər".

**Q.İbadoğlu Bakı-Paris yaxınlaşmasının qısa müddətdə Paris-İrəvan əlaqələrini arxa plana keçirəcəyini, Fransada mövcud olan “Ermənistan bizim bacımızdır” yanaşmasına son veriləcəyini düşünmür:** “İnanmıram ki, bir səfərlər illərlə formalaşmış erməni-fransız münasibətlərini dəyişsin. Amma bu münasibətlərə gələn ay Ermənistanda və Fransada olan seçkilərin təsiri ola bilər”.

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 58 (6672) 16 mart 2017

**Bir yerdə böyümüşdük. Məndən bir yaş böyük idi. Qonşuluğumuz da vardı, qohumluğumuz da. Möhkəm dost idik, amma bu dostluğun qohumluğa qəti dəxli yox idi. Atamla da dost idi, söhbətləri tuturdu. Nə vaxt Ağdama gəlsə və rayonda neçə gün qalırdısa, demək olar ki, hər axşam bizə dəyərdi. O, Xalq Təsərrüfatı İnstitutunda oxuyurdu, mən orta məktəbin axırıncı sinfində.**



# Atasının milyonlarından imtina edən oğul

## **Aqil Abbas:** "Çox titullar qazandı, amma onların heç birini gözə soxmadı, onlarla forslanmadı; o, yalnız Aydın Dadaşov olmağıyla forslanırdı"

Çox böyük dünyagörüşü vardı. Demək olar ki, oxumadığı kitab yox idi. Bizi də bağlayan qohumluq yox, elə kitablardı. Mən rusca yaxşı bilmirdim, o da mənim oxuya bilmədiyim əsərlər haqqında danışardı.

Yekəlik olmasın, elə onların da nəslində, bizim də nəsildə iki oxuyan vardı - biri o idi, biri mən.

Sonra mən də universitetə daxil oldum, böyük qardaş kimi əlimdən tutub Bakı şəhərini tanıtdı mənə. Kitabxanaları tanıtdı, kinoteatrları tanıtdı, teatrları tanıtdı. Yaşının az olmasına baxmayaraq, sənət adamlarıyla, xüsusilə də kino adamlarıyla dostluq edirdi. Məni də onlarla tanış elədi.

Ağdamlılar əsasən "Araz" çayxanasına yığışardılar. Söhbət də orda nədən gedərdi: dünən hansı restoranda dava salıblar, ya kimi döyüblər, sabah harda dava olacaq. Təbii ki, Ağcabədidə doğulsam da Ağdamda böyüyüb oxumuşdum və mən də "Araz"a gedirdim. Çünki o vaxt "Araz"a gəlməyənlərə ağdamlılar ağdamlı kimi baxmırdılar. İstəyirdim mən də ağdamlı olum da. Gəlib məni ordan götürərdi, deyərdi ki, yorulmadın bu dava söhbətlərinə qulaq asmaqdan? Aparırdı sənət adamlarının toplaşdığı yerə, çox vaxt da kinostudiyaya.

Zarafatla deyərdim: SƏN PUL TƏSƏRRÜFATI İNSTİTUTUNDA OXUYURSAN, bu pulsuzlardan nə istəyirsən. Deyərdi ki, dünya burdadı, istəyirəm səni bunların içində görüm.

Özünəməxsus xarizması vardı, hətta o danışanda ən ünlü insanlar ona qulaq asırdılar. İnstitutu qurtaranda da pul dalınca getmədi. Kinostudiyaya işə girdi. Film direktoru oldu. Təbii ki, film direktoru da maliyyə məsələsidi, amma bunu bəyənmədi. Moskvaya getdi, oxumağa... Rejissor olmaq istədi, ssenarist olmaq istədi və oldu da. Dünya "Qarabağ bülbülləri"ndən danışanda o, Xamis Muradovla qeyri-adi sənədli bir film çəkdi, "Qarabağ bülbülləri" haqqında - onların sonrakı taleyi haqqında. Dünən Brejnevi, dünyanı ayağa qaldıran həmin "Qarabağ bülbülləri"nin sonrakı taleyi haqqında. Kimi işsizdi, kimi oxumağı atıb, kimi də yük daşıyır. Həqiqəti qoydu ortalığa. Bilmirəm bu filmə görəmi, ya hansısa filmə görəsə Azərbaycan Respublikasının Dövlət Mükafatını da aldı. Çox titullar qazandı, amma onların heç birini gözə soxmadı, onlarla forslanmadı. O, yalnız Aydın Dadaşov olmağıyla forslanırdı.



Ağdamda ən varlı adamların birinin övladıydı: Ərşad Dadaşovun! Əmisi də Azərbaycanın ən məşhur jurnalistiydi: Mürşüd Dadaşov! O, nə milyoner Ərşad Dadaşovun oğluydu, nə də ən məşhur jurnalist Mürşüd Dadaşovun qardaşı oğlu. Sadəcə, Aydın Dadaşov idi! Özü də atasının milyonlarından imtina edən Aydın Dadaşov. Balaca qardaşları Ayazla Etiş hələ orta məktəbdə oxuyarkən şəxsi avtomobilləri olsa da, o, Bakıda piyada gəzirdi, avtobusla gəzirdi. O vaxtların "Jiquli"si indinin "Mercedes"iydi, özü də bahalı "Mercedes"i. Amma Aydın Dadaşov institutu qurtarandan sonra da, gedib hardasa az maaşa çalışanda da atasının alacağı "Jiquli"dən də, ona göndərəcəyi pullardan da imtina eləmişdi. Bu hiss mənə də doğmadı. Balaca qardaşımın Ağdamda iki maşını olanda mən Bakıda piyada gəzirdim.

Atasıyla arası bir az sərin idi. Soruşurdum, qaqa, dayımla niyə aran sərindi? Dərinə getməzdi, amma deyərdi, dayın hər şeyi pulla ölçür, mənim ölçülərim başqadı. Qısası, atasının milyonlarından imtina eləmişdi. Çalışırdı, işləyirdi və hər aza qane olurdu. Amma geyiminə xüsusi fikir verərdi. Dostlara da deyirdi ki, siz sənət adamlarısız, gözəl geyinməlisiz. Küçədə sizi görənlər bilməlidirlər ki, sizlər kimlərsiz, sizdən mədəniyyət öyrənməlidir - geyim mədəniyyəti, danışıq mədəniyyəti, oturub-durmaq mədəniyyəti...

Hüseyn Ərəblinski də beləymiş. Geyim-gecimi ilə Bakını mat qoyarmış...

... Ərşad Dadaşov, indiki dillə desək, multimilyoner. Çox səxavətli adamıydı. Təkcə Ağdamda yox, Qarabağda nüfuz sahibiydi. Hətta o vaxt ilk azərbaycanlı səfir Vəzirov da bu adama valeh idi. Nə vaxt Azərbaycana gəlsəydi, mütləq Ərşad Dadaşovun qonağı olardı. Bu dostluğun hardan başladığını bilmirəm. Sadəcə olaraq, Vəzirovun Ərşad dayının qoluna girib Ağdamda gəzdiyinin bir dəfə şahidi olmuşdum. Çox qəribə adamıydı, arada qohumlar arasında bir düşmənçilik yarandı, iki nəsil üz-üzə gəldi. Xüsusilə də bizimkilər daha aqressiv idilər. Harda rastlarına çıxsalar Dadaşovlarla davaya çıxardılar. Həmin dönəmlərdə də Aydın bizə gələrdi, həmin dönəmlərdə də biz Aydınla bir yerdəydik. O tərəf onu qınayırdı, bu tərəf məni. Amma bizə fərq etməzdi.

Bir gün dayımın toyuydu. Qəfil Ərşad Dadaşov girdi toy mağarına. Musiqiçilər də dayandı, oynayanlar da dayandı, hamı çaş-baş qalmışdı. Burda hətta ölüm ola bilərdi *(özü də çox axmaq bir məsələdə düşmənçilik olmuşdu. Amma hər iki nəsil ağdamlıydı ki).* Hamı çaşmışdı. Dayandı mağarın ortasında və dedi ki, bu ocağın ağbirçəyi gəlsin. Hamı baxır, bəlkə də əli silahda olanlar var. Atamı tərifləməyim, amma Allah adamıydı, barışıq adamıydı, sözdə, nəsildə eşidilirdi. Qalxdı ayağa və dedi ki, ağbirçəyi çağırın, yəni nənəmi.

Nənəmi gətirdilər. Nənəmin boynunu qucaqladı, üzünü də tutdu musiqiçilərə. Dedi, bir bəy-xanım havası çalın. Musiqiçilər atama baxdı, atam işarə elədi ki, çalın. Çaldılar. Bir iki-üç dəqiqə əlini qaldırıb oynadı və sonra dedi ki, mən barışdım, qalanını özünüz bilərsiz. Və çıxdı getdi.

Onun bu kişiyanə hərəkəti iki nəsli yenidən bir-birinə bağladı. Yəni Aydın Dadaşovun atası da belə bir kişiydi.

Mənim bir povestim var: "Günah". Hətta həmin povestə görə bir vaxtların ən yüksək mükafatlarından sayılan "Komsomol mükafatı" da almışdı. Həmin povesti mənə Aydın Dadaşov yazdırmışdı. Onun söhbətləri, onun hadisələrə münasibəti, onun insanlara münasibəti çox fərqliydi və söhbətlərimizin birində bir sirri açdı. O barədə danışmaq istəmirəm, kim istəyir povesti tapıb oxusun.

Aydın Dadaşov yeganə adamıydı ki, lap saatlarla qulaq asardın, yorulmazdın, usanmazdın. Əksinə, nəsə öyrənərdin. Bir neçə dərsliyin müəllifiydi, həm Bakı Dövlət Universitetində, həm də Dövlət İncəsənət Universitetində dərs deyirdi. Xoşbəxt idi onun tələbələri ki, onun mühazirələrinə qulaq asırdılar.

Aydın Dadaşov böyük filmlər çəkə bilmədi, böyük ssenarilər yaza bilmədi . Çünki dünyada bir dağılma getdi, kinostudiya oturum düşdü. Amma mən bilirəm ki, Aydın bu gün üzdə olan neçə filmin ideyasını vermişdi, rejissorlara məsləhətlər vermişdi, sseristlərə yol göstərmişdi.

Bugünlərdə hörmət etdiyim bir xanım jurnalist Aydını tanımadığını yazmışdı. Bu mənə çox pis təsir elədi. Ən azı ona görə ki, Aydın kinematoqrafiyanı, dünya kinosunu həmin xanım jurnalistdən bir əlli dəfə artıq bilirdi. Amma xanım jurnalist onu kinonu bilməməkdə suçlamışdı. Və xanım jurnalist Gürcüstan filmini - "Mimino"nu misal gətirmişdi. Və xanım jurnalsit çox təəssüf bilmirdi ki, "Mimino" "Gürcüstanfilm"in deyil, "Mosfilm"in istehsalıdı.

Dadaşovla son zamanlar az-az görüşürdük. Təbii ki, bu da işlərin çoxluğu, qayğıların çoxluğuyla bağlıydı. Amma hər görüşümüzdə mənim üçün yeni bir ideya verirdi. Həm də onda bir Haqverdiyev yumoru vardı. Bəzən elə sözlər deyirdi ki, qarşısındakı adam onu səhər başa düşə bilərdi.

Səhər-səhər dadaşımın ölüm xəbərini də kinostudiyanın direktoru Müşfiq Hətəmovdan eşitdim:

- Aqil, Aydını itirdik.

Sonra xanımım dedi ki, xəbərin var, Aydın rəhmətə gedib. Dedim ki, hə, Müşfiq zəng eləmişdi.

Əslində biz Aydın Dadaşovu təxminən iki il əvvəl itirmişdik - xanımı rəhmətə gedəndə. Aydın Dadaşov cismən yaşayırdı, ruhən xanımı ilə birlikdə bu dünyadan köçmüşdü. O xanımına ata, ana, bacı, qardaş, hamısından daha çox bağlıydı. Xanımı Aydının atasının milyonlarından imtina edən vaxtlarında heç vaxt ona deməmişdi ki, niyə biz kirayədə yaşayırıq, niyə istədiyimizi geyinib-gecinmirik, niyə biz işə avtobusla getməliyik? O, Aydını Dadaşov Aydın kimi sevməmişdi, elə Aydın kimi sevmişdi. Aydın da onu elə sevirdi. Onsuz yaşaya bilməzdi və bilmədi də.

Aydını Ayaz itirmədi, Etiş itirmədi, Dadaşovlar nəsli itirmədi, Aydını hamımız itirdik, bu xalq itirdi. Azərbaycan aydınları itirdi, tələbələri itirdi, onun söhbətlərinə həmişə möhtac qalacaq dostları itirdi.

Hamımız öləcəyik ey! Amma Aydın bir az tez öldü.

Qardaş! İndi yəqin Ağdamdasan, doğmalarının arasında! Orda nə var- nə yox. Biz gedə bilmirik, sən bir az bizdən tez getdin.

YENİ MÜSAVAT
N 58 (6672) 16 mart 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İşğalçını ayaqda saxlayan paytaxtlar - xristian təəssübkeşliyinin "astar üzü"

## Qarabağa dair ədalətli qətnamələri unutdurmağa və sıfırlamağa hesablanmış təşəbbüslərin pərdəarxası; **politoloq:** "Bakı Ermənistanın irəli sürdüyü prinsipləri heç vaxt qəbul etməyəcək..."

**Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının bunca uzun sürməsinin kökündə sözsüz ki, həm də xristian amili, daha doğrusu, xristian təəssübkeşliyi dayanır. Heç şübhəsiz ki, həm də bu amildən məharətlə yararlanan erməni tərəfi on illərdir BMT başda olmaqla, nüfuzlu beynəlxalq təşkilatların Dağlıq Qarabağa dair qətnamələrini qulaqardı edir, beynəlxalq təzyiqlərdən yayınır.**

Beləcə, sanksiyalarla üzləşməli olan Ermənistan tam əksinə, gizli-açıq şəkildə himayə olunmaqdadır. Müşahidələr göstərir ki, qardaş Türkiyəyə qarşı qondarma soyqırım iddiasından istifadə edən bir çox Qərb paytaxtları Azərbaycana münasibətdə də Qarabağ "rıçaqı"ndan kontur-təzyiq vasitəsi kimi istifadə edir. Hər halda, belə olmasaydı, Krımın ilhaqına görə 3 ildir Rusiyaya maliyyə-iqtisadi sanksiyalar tətbiq edən ABŞ və Avropa Qarabağ separatçılarına və erməni işğalçılarına da sərt üzünü göstərər, öz ərazilərində separatçıların rahat mənzillənməsi və səfərlər eləməsinə şərait yaratmaz, təcavüzkar Ermənistana da sanksiyalar tətbiq edərdi.

Yəni Qarabağ nümunəsində, Azərbaycana münasibətdə də biz demokratiya paytaxtlarının beynəlxalq hüquq normalarına yenilməz saygısını müşahidə etməli idik, daha "Qarabağ məsələsi başqa münaqişələrdən fərqlənir" kimi demaqogik bəyanatlar eşitməzdik. Yəni yenə əksini görürük.

Dağlıq Qarabağdakı separatçı rejimin "xarici işlər naziri" David Babayanın bugünlərdə Yunanıstana rahatca səfər edib, orada silsilə görüşlər keçirməsi, yunan dövlətində təmtəraqla qarşılanması dediklərimizə sübutdur. Belə olan təqdirdə işğalçı tərəf niyə də özünü Azərbaycan sarıdan daha arxayın və cəzasız hiss eləməsin, Qarabağ məsələsində barışmaz mövqedən çıxış eləməsin ki?

***

Təsadüfi deyil ki, bu arada Ermənistan prezidenti Serj Sərkisyan Qarabağ münaqişəsinin nizama salınması üzrə sülh danışıqlarında iştirakdan nümayişkaranə imtinasını növbəti dəfə absurd səbəblərlə izah etməyə çalışıb və Azərbaycanın ünvanına yeni ultimativ bəyanatla çıxış edib. Yada salaq ki, Azərbaycandan fərqli olaraq, Ermənistan rəhbərliyi sülh danışıqlarını əvvəlki formatlarda və əvvəlki gündəliklə davam etməkdən imtina edir.




"Ermənistan heç vaxt Qarabağ münaqişəsinin nizama salınması üzrə danışıqlardan imtina etmir və İrəvan yüksək səviyyədə yeni görüş imkanını müzakirə etməyə hazırdır, əgər Bakı əvvəlki görüşlərində nail olunmuş razılığı yerinə yetirəcəksə". Ermənistan prezidenti Serj Sərkisyan bunu ispan agentliyi EFE-yə müsahibəsində Azərbaycanla münasibətlərin normallaşdırılması perspektivinə toxunarkən deyib (virtualaz.org).

S.Sərkisyanın sözlərinə görə, Ermənistan danışıqlar masasına yalnız atəşin dayandırılması rejiminin pozulması hadisələrinin araşdırılması üçün mexanizmin yaradılması halında qayıdacaq. Lakin bəllidir ki, Azərbaycan öz işğal edilmiş və beynəlxalq səviyyədə tanınmış ərazilərində belə mexanizmin yaradılmasından prinsipial olaraq imtina edir və tələb irəli sürür ki, işğalçı Ermənistan qoşunlarını özünün beynəlxalq aləm tərəfindən tanınmış sərhədlərinə çəksin. Əks halda, bu, işğal rejiminin möhkəmlənməsi, hazırkı cəbhə xəttinin legitimləşməsi demək olar ki, buna da Azərbaycan heç vaxt razı olmaz.

**Müsahibə zamanı Sərkisyan, həmçinin Azərbaycanı hədələyərək, İrəvanın qondarma "DQR"in müstəqilliyini tanıyacağını da istisna etməyib:** "Təsəvvür edin ki, indiki şəraitdə Ermənistan Dağlıq Qarabağın müstəqilliyini tanıyır. Bu, danışıqlara son qoyacaq. **Və məlum olduğu kimi, danışıqlara alternativ müharibədir". Hərçənd o elavə edib ki, hər şey konkret vəziyyətdən asılıdır. Ermənistan öz mövqeyini dəyişə bilər.** "Mən dəfələrlə demişəm: əgər Azərbaycan Dağlıq Qarabağda genişmiqyaslı hərbi hərəkətləri yeniləyəcəksə, biz müstəqilliyi dərhal tanıyacağıq", - deyə erməni prezident vurğulayıb.

***

**"Ermənilər hər dəfə sülh danışıqlarında yeni bir məsələ ortaya atırlar. İndi də dəfələrlə razılaşdırılmış məsələləri yenidən müzakirə obyektinə çevirmək istəyirlər". Bu sözləri axar.az-a açıqlamasında sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli deyib. Onun sözlərinə görə, Sərkisyanın Fransa səfərində Dağlıq Qarabağın status məsələsinin ön plana salınması hər şeyi alt-üst edir.**

"Ermənistan prezidentinin Fransa səfərində Madrid prinsipləri irəli sürülüb. Azərbaycan yalnız yenilənmiş Madrid prinsipləri əsasında problemin həllinə razıdır. Bu məsələnin əsas nüansları da ondan ibarətdir ki, 7 rayon mərhələ-mərhələ qaytarılır. Bu, 5+2 variantı üzrə də həll edilə bilər. Ancaq həmsədr ölkə Fransanın mövqeyi danışıqlar prosesini bütünlüklə pozur. Status məsələsinin ortaya atılması o deməkdir ki, Dağlıq Qarabağın statusu həll edildəndən sonra ermənilər rayonların geri qaytarılmasını və bütövlükdə sülh prosesini tamamilə poza bilərlər", - deyə politoloq qeyd edib.

**Onun fikrincə, məsələdə ardıcıllıq belə olmalıdır:** "Təcavüzkar işğal edilmiş ərazilədən çıxmalıdır. Ermənistanın təcavüzkar elan edilməsi BMT-nin qərarlarında öz təsdiqini tapıb. Əgər vəziyyəti işğalçı diktə edəcəksə və öz şərtlərini irəli sürəcəksə, Fransa da bunu müdafiə edəcəksə, bu, danışıqlar yox, birbaşa diktə prosesidir. Bu, Azərbaycanın hüquqlarının tamamilə heç sayılması və Ermənistanın bir növ hərtərəfli müdafiəsi deməkdir. Azərbaycan heç cür Ermənistanın irəli sürdüyü və Fransanın müdafiə etdiyi prinsipləri qəbul etməyəcək. Beləliklə də bölgədə müharibə təhlükəsi gündəmdə qalacaq".

***

Məlum olduğu kimi, Ermənistan prezidenti martın 8-də Parisdə fransalı həmkarı Fransua Ollandla görüşüb. Görüş zamanı Qarabağ münaqişəsinin nizamlanması məsələsi müzakirə edilib. Fransadakı erməni təşkilatlarının koordinasiya şurasının sədri Murad Papazyan erməni mətbuatına müsahibəsində bildirib ki, Olland görüşdə Qarabağ münaqişəsinin nizamlanmasına dair Madrid prinsiplərinin əsas götürülməsini vurğulayıb və Dağlıq Qarabağın yekun statusunu müəyyənləşdirmək üçün referendumdan sonra 5 rayonun Azərbaycana qaytarılmasını irəli sürüb.

Olland Sərkisyanla görüşündən sonra hətta sülhə qarşı çıxılan hallarda müşahidə və xəbərdarlıq edilməsi, sanksiyaların tətbiqi üçün mexanizmin hazırlanmasına dair bəyanat da verib. Azərbaycan isə təmas xəttində ATƏT müşahidəçilərinin yerləşdirilməsinin əleyhinədir. Çünki bu, deyildiyi kimi, işğal rejimini legitimləşdirməyə, Qarabağa dair ədalətli qətnamələri sıfırlamağa və Azərbaycanın öz qanuni torpaqlarını azad eləmək üçün əl atacağı sonuncu vasitədən - hərb variantından onu məhrum etməyə yönəlib. Rəsmi Bakı təbii ki, heç vaxt buna razılıq verməyəcək.



## Bakı İslam ölkələrindən Qarabağa daha güclü dəstək istəyir

**"Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı Azərbaycanın taleyüklü məsələsidir". Bu sözləri xarici işlər nazirinin müavini Xələf Xələfov "İslam həmrəyliyi: zamanın çağırışı" adlı beynəlxalq konfransdakı çıxışında deyib (APA). O bildirib ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tələb edir.**

"Bu kimi məsələlərin dünya ictimaiyyətinə çatdırılmasında İslam həmrəyliyinin böyük əhəmiyyəti var. Bu mənada İslam Əməkdaşlıq Təşkilatının rolunu və işğalla bağlı kontakt qrupunun yaradılmasını yüksək qiymətləndirir, İƏT-ə bu məsələyə siyasi və hüquqi qiymət verməsinə görə təşəkkür edir, digər İslam ölkələrini də bu sahədə həmrəylik nümayiş etdirməyə çağırırıq" - Xələf Xələfov deyib.

"Erməni silahlı bölmələri işğal olunmuş ərazilərdə etnik təmizləmə, Xocalıda soyqırım həyata keçirib. Hazırda isə işğal olunmuş ərazilərdə qeyri-qanuni iqtisadi fəaliyyət və məskunlaşma siyasəti yürüdür, yerli məhsulları qondarma brendlər altında xarici ölkələrə çıxarmağa çalışırlar. Bunların qarşısının alınmasında İƏT-in dəstəyinə güvənirik", - nazir müavini vurğulayıb.

O, İƏT ölkələrinin Dağlıq Qarabağdan olan şəxslərin girişini qadağan etməsi istiqamətində də addımlar atdığını deyib. X.Xələfov qeyd edib ki, işğal olunmuş Azərbaycan torpaqlarında abidələr, qəbirlər və məscidlər darmadağın edilib. "İƏT ölkələri KİV-lərinin bu məsələləri işıqlandırmaq istiqamətində fəaliyyətlərini gücləndirməsini xahiş edirik. Azərbaycan bir sıra müsəlman ölkəsində olan müharibə və münaqişələri yaxşı anlayır. Bunların həll olunması üçün səylərin birləşdirilməsi və qarşılıqlı dəstək mexanizminin yaradılmasını zəruri hesab edirik", - deyə X. Xələfov əlavə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Türkiyə-Ukrayna arasında tarixi viza razılığı Azərbaycanı da hərəkətə gətirə bilər

## Elxan Şahinoğlu: "Türkiyə və İranla əlaqələrdə ümumiyyətlə viza prosedurundan imtina etmək lazımdır"

**Türkiyə ilə Ukrayna arasında hər iki ölkə üçün mühüm olan razılaşma əldə olunub. Belə ki, hər iki dövlətin vətəndaşları şəxsiyyət vəsiqələri ilə ölkələrarası səfərlər həyata keçirə biləcəklər. Razılıq Ukraynanın baş naziri Vladimir Qroysmanın Ankaraya səfəri zamanı baş tutub.**

Bu barədə Türkiyənin baş naziri Binəli Yıldırım ukraynalı həmkarı ilə birgə keçirdiyi mətbuat konfransında məlumat verib: "Türkiyə ilə Ukrayna arasında imzalanan razılaşmaya görə, artıq şəxsiyyət vəsiqəsi ilə ölkələrarası səfər həyata keçirmək mümkün olacaq. Ukrayna ilə turizm sahəsindəki əlaqələrimiz getdikcə inkişaf edir. Ötən il Ukraynadan 1 milyondan çox turist qəbul etmişik. Yeni razılaşma ilə ölkələr arasında daha çox gediş-gəlişin olacağına ümid edirik. Həmçinin hava yolları ilə bağlı müəyyən yeniliklərə ehtiyac var".

Ekspertlər indiki şəraitdə Türkiyənin son aylarda yaxından əlaqələr qurduğu, müxtəlif istiqamətlərdə dövlətlərarası əməkdaşlığa böyük önəm verdiyi Rusiyanın bu qərardan qıcıqlanacağını bildirirlər. Ərazilərinə təcavüz etdiyi bir ölkə ilə Türkiyənin bu qədər mühüm razılaşma əldə etməsinin Kremlin pərdəarxası etirazına səbəb olacağı müzakirə edilir.

Eyni zamanda hər iki ölkə arasında əldə olunan mühüm razılaşma zaman-zaman olduğu kimi, bir daha Azərbaycanın Türkiyə vətəndaşlarına tətbiq etdiyi viza məsələsini gündəmə gətirib. Ekspertlər hesab edirlər ki, artıq rəsmi Bakı bu istiqamətdə ciddi addımlar atmalı, türklərlə bağlı viza qadağasını aradan qaldırmalıdır.

**Politoloq Elxan Şahinoğlu bu qərardan sonra Türkiyəyə gələn ukraynalı turistlərin sayının artacağını düşünür:** "Məncə, Ukraynanın gənc baş naziri Vladimir Qroysmanın Türkiyəyə rəsmi səfəri uğurlu keçdi. Ukrayna ilə Türkiyə arasında şəxsiyyət vəsiqələri ilə ölkələrarası səfərlərin həyata keçirilməsi qərarının verilməsi bu uğurun tərkib hissəsidir. Türkiyədə son illərdə dincələn ukraynalı turistlərin sayı 1 milyonu ötüb. Yeni razılaşma bu sayın daha da artmasına gətirib çıxaracaq. Eləcə də Türkiyə vətəndaşları rahat şəkildə Ukraynaya səfərlər edəcək, həm dincələcək, həm də işgüzar əlaqələr quracaqlar".

**E.Şahinoğlu bu razılaşmanın Türkiyənin Rusiya ilə əlaqələrinə zərbə vurmayacağını qeyd etdi:** "Türkiyənin Ukrayna ilə münasibətlərini genişləndirməsi Ankaranın Kremllə əlaqələrinə kölgə salmayacaq. Hər əlaqənin öz



yeri və rolu var. Ona qalsa, Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayevin də eyni gündə Kiyevə uğurlu səfəri oldu. Azərbaycanla Ukrayna arasında da ticarət həcmi artır, ortaq layihələr reallaşır. Rusiya Ukraynanın Mərkəzi Asiyaya çıxışını bağlayıb. Hazırda Ukrayna Qara dəniz, Gürcüstan və Azərbaycan dəmiryolları üzərindən Mərkəzi Asiyaya mal daşıyır. Yəni Azərbaycan bir növ Ukraynanı Rusiyanın iqtisadi mühasirəsindən qurtarıb. Ona qalsa, gərək Bakı da Ankara kimi Kremlin narazılığından ehtiyat edərdi. Ancaq iki dövlət arasındakı münasibətlərə üçüncü dövlət müdaxilə edə bilməz. Ona görə də həm Ankara, həm də Bakı Kiyevlə əlaqələrini genişləndirmək xəttini götürüblər və bu doğru siyasətdir. Bu hamı üçün faydalıdır. Hətta düşünürəm ki, Şahin Mustafayevin Kiyevə, Vladimir Qrosymanın isə Ankaraya uğurlu səfərləri bölgədə yeni Türkiyə-Ukrayna-Azərbaycan formatının yaradılmasına yol aça bilər".

**Politoloq onu da bildirdi ki, Kiyevlə Ankara arasında təmasların artması Ukrayna iqtisadiyyatı üçün xeyirlidir:** "Türkiyənin investisiya imkanları genişdir və yeni bazarlar axtarır. Ukrayna çox münbit bazardır və Avropaya çıxış imkanları var. Türkiyə Ukraynanın bank sektorundakı rolunu artıra bilər. Bundan başqa, iki ölkə arasında sərnişin təyyarəsi istehsal edən birgə müəssisənin yaradılması müzakirə predmetidir. Ukraynada böyük təyyarə zavodları var ki, istehsal zəifləyib və Türkiyə bu istehsala dəstək verə bilər. Türkiyə şirkətləri Ukrayna müəssisələrinin özəlləşdirilməsində də fəal iştirak edə bilərlər".

**Müsahibimiz bu məsələlərdə Azərbaycanın gecikdiyinə işarə vurdu:** "Hesab edirəm ki, Azərbaycanla Türkiyə arasında da sadəcə şəxsiyyət vəsiqələri əsasında səfərlərə başlanılmasının vaxtıdır. Bu məsələdə gecikirik. Türkiyə Gürcüstan, ardından Ukrayna ilə bu məsələni həll etdi. Rəsmi Bakı bu məsələni niyə gecikdirir, bu mənə hələ də aydın deyil. Əslində əvvəlki illərlə müqayisədə ASAN vasitəsilə viza proseduru xeyli yumşalıb. Ancaq Türkiyə və İranla əlaqələrdə ümumiyyətlə viza prosedurundan imtina etmək lazımdır. Bəli, vizanı Bakı Hava Limanında əldə etmək mümkündür, ancaq vizanın özü niyə olsun ki? Əgər qonşu və tərəfdaş dövlətlərdən turist axınının və gəlirlərin artmasını istəyiriksə, ümumiyyətlə, vizaya ehtiyac qalmır".

❑ Cavanşir ABBASLI

# Aralıq dənizi dünya nəhənglərinin arasında toqquşma nöqtəsinə çevrilir

## Üç qitəni birləşdirən bu dəniz Çinin və İranın əlinə keçə bilərmi…

**Birgə hərbi təlimlər keçirən Rusiya və Çinin hərbi gəmiləri Aralıq dənizinə daxil olublar. Bu barədə "RİA Novosti"yə Rusiya Müdafiə Nazirliyinin mətbuat xidmətinin nümayəndəsi İqor Dıqalo bildirib. O qeyd edib ki, Çin Hərbi-Dəniz Qüvvələrinə məxsus "Lin İ" və "Vey Fan" hərbi gəmiləri, habelə Rusiyanın Qara dəniz donanmasına məxsus "Samum" və "Moskva" raket gəmiləri Bosfor və Dardanel boğazlarından keçərək Aralıq dənizinə daxil olub.**

Xatırladaq ki, bundan əvvəl hərbi gəmilər Egey dənizinə daxil olmuşdu.

Bir neçə gün öncə isə İran kürd yığma qüvvələri ilə rayonu rayon ardınca tutaraq Aralıq dənizi sahillərinə yetişib. Beləliklə, İran yeni yol əldə edib. Bu yol İraq səhrasında "sünni üçbucağı"ndan keçməklə Suriya səhrasına qədər uzanır. Sonra Dəməşqə və Latakiya və Beyrutdan yan keçməklə Aralıq dənizinin sahillərinədək çatır.

Qeyd edək ki, Aralıq dənizi üç qitəni birləşdirən çox böyük strateji su hövzəsidir. Məhz buna görədir ki, bu gün dünyanın nəhəng güclərinin maraqları məhz orada toqquşur. Aralıq dənizində söz sahibi olmaq, burada üstünlüyü ələ almaq üç qitəyə-Avropa, Asiya, Afrikaya çıxış əldə etmək, nəzarət etmək hesab olunur. Və artıq son günlər belə görünür ki, Çin və İran kimi bu iddialarını gerçəkləşdirməkdə qərarlıdırlar. Bəs onların bu iddialarını




tamamilə gerçəkləşdirməsi mümkün olacaqmı? ABŞ və NATO özləri üçün həyati əhəmiyyət daşıyan Aralıq dənizində Çinin və İranın lövbər salmasına imkan verəcəkmi?

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Aralıq dənizi NATO dənizidir, bu dəniz boyunca NATO ölkələri yerləşir. Çin və İran Aralıq dənizinə iddialı dövlətlər olsalar da, iddiaların reallaşdırılması mümkün deyil. ABŞ və NATO buna imkan verməz:** "Son zamanlar İranın Aralıq dənizinə yol açma cəhdləri var. Bu cəhdlərin qarşısını almaq üçün mən əminəm ki, Amerika müəyyən planlar düşünməyə başlayıb. Artıq Aralıq dənizində ABŞ-ın bir neçə kreyseri, bir təyyarə daşıyan gəmisi var. Yeni istifadəyə verilmiş "Corc Buş" adlanan təyyarə daşıyan gəmisi Hörmüz boğazı ətrafındadır və oradan İran körfəzinə daxil olmaq niyyətindədir. Üstəlik, İranla bağlı ABŞ-ın son zamanlar səsləndirilən ciddi bəyanatları var. Bu bəyanatlarda həm təhdid var, həm də İrana qarşı müəyyən tədbirlərin həyata keçiriləcəyi ideyası yer alır. Belə görünür ki, sanksiyaların yenidən tətbiqinə başlanılması artıq İranın sıxışdırılmasının başlanmasıdır və gələcəkdə bu məsələlərin daha da irəliyə getməsi istiqamətində iş aparılır. Məsələn, ABŞ Səudiyyə Ərəbistanı, Qətər və digər ərəb ölkələri ilə birlikdə böyük bir koalisiya yaradır. Bu koalisiyanın məqsədi İranı həm Suriyadan, həm də İraqdan vurub çıxarmaq və beləliklə də onun Aralıq dənizinə yolunu bağlamaqdır. Bu, çox da uzaq olmayan dövrdə mütləq baş verəcək. Ola bilsin bu il baş versin".

**Çinə gəldikdə, politoloq dedi ki, Çinin Aralıq dənizində yerləşmək imkanları çox zəifdir. Çin hazırda Atlantik okeanında və Atlantik okeanının Çin dənizi deyilən sahəsində süni adalar yaratmaq və həmin süni adalarda hərbi qüvvələr yerləşdirməklə məşğuldur:** "Burada da o, Amerikanın ciddi müqavimətinə rast gəlib. Çünki süni adalar yaradılması prosesində Malayziya da, İndoneziya da, Vyetnam da Çinin bu cəhdlərinə qarşı çıxırlar və bildirirlər ki, 12 millik iqtisadi zonadan kənara çıxmamalı, bütün Çin dənizini özünün daxili sularına çevirməyə cəhd etməməlidir. ABŞ da Çinin bu planına qarşı çıxır və özünün hərbi dəniz qüvvələrinə aid armadasını Çin dənizində yerləşdirməyə başlayıb. Çinin müxtəlif notalarına baxmayaraq, ABŞ buna əhəmiyyət vermir. Hətta istehzalı formada Çini təmkinli olmağa dəvət edir. Bir sözlə, Çin əgər Çin dənizində özünün hegemonluğunu təmin edə bilmirsə, çoxlu dövlətlərin iddiası olduğu Aralıq dənizinə yaxın da gələ bilməz. NATO və İsrail birlikdə Aralıq dənizinin taleyini demək olar ki, həll edəcəklər. Doğrudur, beynəlxalq sularda istənilən ölkənin gəmisi azad surətdə üzüb keçə bilər, amma burada əzələ nümayiş etdirmək, dənizə sahiblik hüququna iddia etmək heç cür mümkün deyil. Mən əminəm ki, mövcud status-kvo dəyişməyəcək. Hələ ola bilsin ki, mövcud status-kvo ABŞ və Atlantika blokunun xeyrinə daha da möhkəmləndirilisin".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 58 (6672) 16 mart 2017

# Avropa Məhkəməsinin hicabla bağlı qərarı etiraz doğurdu

**Avropa Məhkəməsi iş yerində hər hansı siyasi və ya dini simvolların, o cümlədən hicab taxılmasının qadağan edilməsini qanuni hesab edib. Qərarda bildirilir ki, qadağa müştərilərin deyil, beynəlxalq şirkətlərin işçilərin "neytral geyinməsi" ilə bağlı tələblərinə əsaslanmalıdır. Xatırladaq ki, Belçikada G4S şirkətinin resepşnı hicabsız işləmək istəmədiyi üçün qovulmuşdu. Belçika kasasiya məhkəməsi işi Avropa Məhkəməsinə göndərmişdi. Bu, Aİ-nin ali məhkəmə instansiyasının iş yerində hicab taxılması ilə bağlı çıxardığı ilk qərardır.**

Avropa Məhkəməsinin bu qərarı təkcə müsəlman ölkələrində deyil, qeyri-müsəlman dindarların da narazılığına səbəb olub. Avropa Ravvinlər Şurasının sədri Pinxas Qoldşmidt Avropa Ədalət Məhkəməsinin (ECJ) iş yerlərinə işçilərin "dini rəmz" xarakterli geyimləri qadağan etməsinə icazə verən qərarının Avropadakı dini azadlıqları məhdudlaşdıran bir mesaj olduğunu deyib.

**Qoldşmidt açıqlamasında belə qeyd edib:** "Bu qərar Avropanın dini azlıqları üçün dostca olmayan bir mesaj olacaq. Bu da cəmiyyət daxilində nifrət və əcnəbi düşmənçiliyinin artmasına yol aça bilər. İstər müsəlman geyimi, istər yəhudi kipası və ya tsitsiti, istərsə də sikxlərin baş örtüyü olsun, hər hansı bir dini xarakterli əşyaların daşınmasının qadağan edilməsi, imanlı insanların hüquq və azadlıqlarını məhdudlaşdırmaq cəhdidir".

Bu qərar Azərbaycan ictimaiyyətində tərəfindən də birmənalı qarşılanmayıb.

**Dini məsələlər üzrə ekspert Kənan Rövşənoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu, Avropada anti-İslam meyllərinin gücləndiyini göstərir:** "İlk baxışdan da görünür ki, qitədə artan irqçilik və İslam düşmənliyin təsiri var. Çünki daha əvvəl belə hal olmayıb.

Doğrudur, ayrı-ayrı yerlərdə çağırışlar var idi. Amma bir məsələni dəqiqləşdirmək lazımdır ki, bu qərar baş örtüsü barədədir, yoxsa niqab. Çünki niqab daha əvvəl Fransada qadağan olunmuşdu və bunu təhlükəsizlik məsələləri ilə izah edirdilər. Bu müəyyən mənada anlaşılan idi. Terrorçular daha çox niqabdan istifadə etdikləri üçün yoxlama tədbirləri zamanı üzün görünməsi vacibdir".

**Ekspert hesab edir ki, bu qərar Şərqlə Qərb arasında bir uçurumun yaranmasından xəbər verir:** "Mənə görə bu, Şərqlə Qərb arasında növbəti uçurumdur. Avropada bir neçə milyon müsəlman yaşayır, onların içərisində hicablılar da var. Eyni zamanda Avropa bütün müsəlman aləmi ilə əməkdaşlıq edir. Məsələn, bir yəhudinin və ya sinkxin, özünəməxsus geyim və ya başörtüsü ola bilər. Bunu qadağan etmək, Avropanın özünün də müsəlman aləmi ilə əlaqələrinə zərbə olacaq. Bu qərar demokratiya, ifadə və vicdan azadlığının olması ilə bağlı arqumentləri əzir. Bu da tədricən mədəniyyətlər arasında uçurumu dərinləşdirəcək".



**Kənan Rövşənoğlu:** "Bu, Avropada anti-İslam meyllərinin gücləndiyini göstərir"



**Mehriban Zeynalova:** "Yaxşı olar ki, terrorizmlə mübarizənin başqa yollarını axtarsınlar"

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri, hüquq müdafiəçisi Mehriban Zeynalova da bildirdi ki, bu, Avropanın bütün dünyada təbliğ etdiyi insan hüquqlarına, vicdan azadlığına ziddir:** "Avropa dövlətlərinin öz qaydaları və qanunları var. Digər tərəfdən, Şərq ölkələrində hicaba çox önəm verilir. Avropaya tutulan iradın səbəbi isə odur ki, Qərb insanların dini azadlığı, geyim seçimi və sairlə bağlı demokratik dəyərlər təbliğ edir. Avropada qısa geyinənlərə qadağa qoymurlar ki... Bu, insanların seçim hüquqi kimi dəyərləndirilir. Ancaq hicab məsələsinə münasibət fərqli olur. Bu bir qədər də təhlükəsizlik məsələsi ilə bağlı məqamdır. Ancaq Avropa Məhkəməsinin bu qərarı insan haqlarının pozulması kimi qiymətləndirilir. Çünki Avropanın ali sənədlərində də göstərilir ki, hər bir kəsin dini azadlığı var, o dini azadlıqdan irəli gələn azad geyim seçimi hüququ var. Terrorizmlə bağlı bu cür qadağaların tətbiq edilməsi anlaşılandır. Ancaq digər tərəfdən insan hüquq və azadlıqlarına ziddir. İnsan haqları məsələsi bəzi məqamlarda Avropa üçün problemlər yaradır. O baxımdan, Avropanın bu cür bəyanatları onun əsas strategiyası olan demokratiyaya, insan hüquqlarına ziddiyyət təşkil edəndə bütün dünya ona qarşı çıxır. Bəzi insanlar var ki, bu geyim onun gündəlik həyatıdır, bununla yaşayır. Onlar hicabı atmasalar, təhsil hüququndan, əmək hüququndan məhrum olunacaqlar. Görün burada nə qədər ziddiyyətli məqamlar ortaya çıxır. Ona görə də yaxşı olar ki, terrorizmlə mübarizənin başqa yolları axtarsınlar. Hazırda bütün dünya terrorizmlə çalxalanır. Ona görə də yaxşı olar ki, terrorçunu müəyyən etmək üçün başqa alətlərdən istifadə olunsun".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı da bildirdi ki, bu qərar insan haqlarına ziddir:** "Avropa ölkələri İnsan Hüquq və Azadlıqları üzrə Avropa Konvensiyasına qoşulublar və həmin konvensiyada da birmənalı şəkildə deyilir ki, irqi, dini, milli mənsubiyyətindən asılı olmayaraq hər bir kəsin hüququ var. Bu qadağa isə hicablı xanımların hüquqlarını pozur. Bu da sözsüz ki, insan hüquqlarının pozulmasının təzahürüdür".

❑ **Nərgiz LİFTİYEVA**

# 2050-də il ərzində 24 milyon insan xərçəng xəstəsi olacaq...

## Adil Qeybulla: "Birinci və ən ciddi amil ekoloji səbəblərdir"

**Azərbaycanda onkoloji xəstəliklərin sayı artıb. 2011-ci ildə əhalinin hər 100 min nəfəri arasında onkoloji xəstəliklərlə xəstələnmənin göstəricisi 95,8 nəfər olub. 2012-ci ildə bu rəqəm 94,2-yə, 2013-cü ildə 97,5-ə, 2014-cü ildə 101,4-ə çatıb. 2015-ci ildə isə Azərbaycanda əhalinin hər 100 min nəfəri arasında onkoloji xəstəliklərlə xəstələnmənin göstəricisi 106,9 nəfər olub. Ötən il isə bu rəqəm bir qədər yüksəlib və əhalinin hər 100 min nəfərindən 108,5-də onkoloji xəstəlik olub. Bir sözlə, onkoloji xəstəliklər 5 ilə 10 faizdən çox artıb.**



Adil Qeybulla

Ümumiyyətlə, araşdırmalar göstərir ki, hər il dünyada 12 milyon insan bu xəstəliyə tutulur və onlardan 7 milyonu ölür. Dünya Xərçəng Araşdırma Fondu ehtimal edir ki, 2050-ci ildə dünyanın 24 milyon insanında xərçəng xəstəliyi meydana gələcək, nəticədə 16 milyon insan dünyasını dəyişəcək. Pəhrizə diqqət yetirilməsi, idmanla məşğul olmaq bu halların sayını dörddə bir dəfə azalda bilər. Təbii ki, bu xəstəliklərin artmasına səbəb ətraf mühitdə baş verən ən xırda detallar belə ola bilər. Keyfiyyətsiz və konservləşdirilmiş qidalar, hava, su bütün bu amillər xərçəng xəstəliyinin yaranmasına, inkişafına səbəb olur.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla yalnız Azərbaycanda deyil, bütün dünyada xərçəng xəstələrinin sayının artmaqda olduğunu dedi:** "Bütün dünyada onkoloji xəstəliklər artmaqdadır. Afrika ölkələrində bu dinamika daha yüksəkdir, nəinki inkişaf etmiş ölkələrdə. Amma bunun səbəbləri müxtəlifdir. Birinci və ən ciddi amil ekoloji səbəblərdir. Yəni insanların ekoloji ətraf mühitin çirklənməsi, qidalanma rejiminin dəyişməsi bu məsələnin əsasında dayanan əsas faktorlardır. Birincisi, bu gün ətraf mühitin, içməli suyun, havanın çirklənməsi daha çox diqqəti cəlb edir. Bir kub metr havada 1 nanoqram enzaklen törəməsi varsa, bu aromatik karbohidratlardır ki, xərçəng şişi törətməyə qadirdilər. Bunlar ağciyər şişini törədirlər. Şəhər yerlərində, avtomobildən çıxan qazların havaya toplanması və sairə xeyli konserogen mühit yaradır. Daha sonra isə buna səbəb içməli sudur. Bütün dünya üzrə içməli su ehtiyatları bir tərəfdən tükənir, bir tərəfdən də getdikcə artan ekoloji problemlərlə bağlı çirklənir. Bundan başqa, qidalanma rejimi də mühümdür; bu gün bütün dünyada süni, konserv olunmuş qidaların və onların tərkibinə daxil edilən qida əlavələrinin çeşidlərinin, genetik modifikasiya olunmuş qidaların xüsusən artması yeni bir qidalanma rejimi yaradır ki, bunun insan orqanizmi üçün hələ təsirlərinin son nəticələri öyrənilməyib. Amma bu faktorlar da çox ciddi şəkildə rol oynayır. Birinci növbədə də müxtəlif konservləşdirilmiş qudaların tərkibində olan qida əlavələri - hansılar ki, konserogen təsirə malikdir - sərbəst radikallar yaradır, konserogen təsir göstərir və bu xərçəngin əsasını qoyur. Bilirsiniz ki, fast-foodlar da bütün dünya üzrə səpələnib, çeşidləri də mövcuddur. Fast-food da əsas mənfi rol oynayan faktor yanmış yağlardır. Məsələn, bir yağ bir neçə saat ərzində qaynayanda onda çoxlu sərbəst radikallar əmələ gəlir və bunlar da bir başa konserogen təsir göstərir. Radiasiyanın artması da buna təsir edən amillərdəndir. İonlaşdırıcı radiasiyanın müəyyən elementlərinin olması, məsələn, Çernobıl hadisələrindən sonra xeyli ionlaşdırılmış radiasiyaların ətraf aləmə yayılması, bundan başqa, həmin zonada qida məhsullarının dünya üzrə paylanmasının hamısı bu məsələdə ciddi rol oynayır. Ümumiyyətlə, düşünürəm ki, onkoloji xəstəliklərin dinamikasının artmaması üçün dünyada yeni bir düzən formalaşmalıdır. Bu, birinci növbədə ekoloji təmizlikdir, mümkün qədər ekoloji təhlükəsizlikdir və bir də qidalanma rejiminin daha təhlükəsiz müstəviyə keçirilməsidir. Ən azı ölkəmiz mümkün qədər bu təsirlərdən qorunmalıdır. Öz daxili məhsularımızın istifadəsinə keçilməlidir ki, mümkün qədər bu təhlükələrdən qoruna bilək".

İngiltərədə aparılan araşdırmalar zamanı isə xərçəng xəstəliyinin yaranma səbəbləri ilə bağlı ilginc faktlar aşkar olunub. Araşdırmalar zamanı məlum olub ki, xərçəngə tutulanların 40 faizi siqaret çəkmək, spirtli içkidən istifadə etmək və həddən artıq piylənmənin nəticəsində bu xəstəliyə düçar olurlar. Lakin bu təsirlərin başında siqaret durur. Son olaraq İsrail alimlərinin 45 yaşadək olan 367 qadın arasında süd vəzi xərçəngi ilə bağlı apardıqları araşdırma göstərib ki, bu xəstəlikdən əziyyət çəkən qadınların əksəriyyəti vaxtilə stress keçirənlərdir. Stress süd vəzinin xərçəngi xəstəliyinə tutulma riskini 62 faiz artırır. Alimlərin fikrincə, televizora baxılan hər bir saat xərçəng xəstəliyi riskini 9 faiz çoxaldır. Bədxassəli şişlərin insanın qidası ilə də sıx əlaqəli olduğu bildirilir. Mütəxəssislər mütəmadi olaraq balıq və tərəvəzlə qidalanmanın onkoloji xəstəliklərin yaranma ehtimalını xeyli azaltdığını təsdiqləyir. Ət isə əksinə, bu riski artırır. Araşdırma göstərib ki, gündə 160 qramdan artıq ət yeyən insanların bağırsaqlarında xərçəng xəstəliyinin yaranması riski 35 faiz çoxdur. Mütəmadi balıq yemək isə bu riski 31 faiz azaldır. Quş əti bu baxımdan neytral effektə malikdir. O, bağırsaqlarda xərçəng xəstəliyinin yaranma riskini nə artırır, nə də azaldır.

❑ **Günel MANAFLI**

# Azərbaycandan 1525 əcnəbi deportasiya edilib




**Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən 2017-ci ilin fevral ayı ərzində miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, idarə edilməsi və tənzimlənməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirilib.**

Ötən ay 1767 əcnəbinin Azərbaycan Respublikasında olmanın, müvəqqəti və daimi yaşama qaydalarına əməl etmədən inzibati qanunvericiliyin tələblərinin pozması halı müəyyənləşib.

Dövlət Miqrasiya Xidmətindən APA-ya bildirilib ki, onlardan 19-nun Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün əsas verən sənədləri itirildiyindən yenisi ilə əvəzlənib, 223 nəfərin ölkədə yaşaması leqallaşdırılıb, 1157 əcnəbinin Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etməsi, 368 əcnəbinin isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılması barədə qərarlar qəbul edilib.

Fevralda xidmətə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi və mövcud iş icazələrinin müddətlərinin uzadılması ilə bağlı 7786 müraciət daxil olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib.

Ötən ay olduğu yer üzrə qeydiyyatla bağlı 39464 əcnəbinin müraciəti qeydə alınıb.

Qurum ay ərzində ayrı-ayrı bölgələrdə və ali məktəblərdə 5 maarifləndirmə tədbiri keçirib, o cümlədən səyyar xidmət göstərib.

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.

- Diaqnozu bilinməyən ağır hallar;
- Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- Sidikdə və spermada qan;
- Spermanın azalması, itməsi;
- Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- Tala-tala və hərtərəfli saçların tökülməsi;
- Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, (050) 213-88-05 nömrəsinə, d-r Vaiz Səmədova zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Şamaxıda oğurladığı avtomobillə qız qaçıran sürücü tutuldu

**Şamaxıda oğurladığı avtomobillə qız qaçıran sürücü tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, martın 14-də saat 9 radələrində Şamaxı şəhəri ərazisində şəhər sakini, əvvəllər məhkum olunmuş Bilal Abdullayev idarə etdiyi "KİA" markalı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə həmin ərazidə xidmət aparan yol polisi əməkdaşı tərəfindən saxlanılıb.**

Bu zaman avtomobildəki sərnişin, Bakı şəhər sakini olan qadın N.İ polis əməkdaşına sürücü tərəfindən zorla aparıldığını bildirərkən B.Abdullayev avtomobillə hadisə yerindən qaçıb.

Dərhal görülmüş tədbirlərlə avtomobil şəhər ərazisində saxlanılan zaman polis əməkdaşlarına müqavimət göstərməsinə baxmayaraq, sürücü zərərsizləşdirilərək Şamaxı Rayon Polis Şöbəsinə gətirilib.

Əməliyyat tədbirləri ilə B.Abdullayevin idarə etdiyi "KİA" markalı avtomobilin Bakı şəhər sakini Əşrəf Seyidzadəyə məxsus olduğu və bu nəqliyyat vasitəsini həmin gün saat paytaxtın Yasamal rayonu ərazisində usta işlədiyi təmir sexindən qaçırdığı da müəyyən edilib.



## Bakı metrosunda qadın özünü qatarın altına atdı

**Martın 15-də səhər saatlarında Bakıda metro stansiyasında intihara cəhd hadisəsi olub. Bu barədə BakuPost.az-a "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev məlumat verib.**

O bildirib ki, hadisə səhər saat 10:40 radələrində "Ulduz" stansiyasında baş verib: "1961-ci il təvəllüdlü Kərimova Hüsniyyə Tufan qızı qatar stansiyaya gələrkən özünü reyslərin arasına atıb. Maşinist dərhal qatarı saxlayıb. Daha sonra əməkdaşlarımız həmin xanımı qatarın altından çıxardıblar".

Nəsimi Paşayev qeyd edib ki, xanım heç bir xəsarət almayıb: "Hər şey qaydasındadır. Hazırda xanımın hansı səbəblərdən intihara cəhd etməsi araşdırılır".

## Bakıda avtobuslar üçün xüsusi hərəkət zolaqlarının çəkilişinə başlanılıb

**Bakı Nəqliyyat Agentliyi (BNA) ictimai nəqliyyatdan istifadə edən vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədilə Bakı şəhərinin küçə və prospektlərində yalnız sərnişin avtobuslarının hərəkət etməsi üçün xüsusi hərəkət zolaqlarının çəkilməsinə başlayıb. "APA-Economics" xəbər verir ki, bunu BNA-nın mətbuat xidmətinin rəhbəri Mais Ağayev bildirib.**

M.Ağayevin sözlərinə görə, xətlənmə işləri ilkin mərhələdə paytaxtın 9 küçə və prospektində aparılacaq. "Artıq Füzuli küçəsində xüsusi hərəkət zolağının çəkilişinə başlanılıb. Xüsusi hərəkət zolaqları yalnız sərnişin avtobuslarının hərəkəti üçün nəzərdə tutulub. Digər nəqliyyat vasitələrinin bu hərəkət zolaqlarından istifadəsi qadağandır. Bu zolaqlarda avtomobillərin park edilməsi də qadağandır. Zolaq boyunca yerləşən yaşayış məntəqələrində yaşayan sakinlər üçün xüsusi nişanlar qoyulacaq ki, həmin yerlərdən sakinlər məhəllələrinə daxil ola bilsinlər", - deyə qurumun sözçüsü bildirib.

Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi Vaqif Əsədov isə bildirib ki, ictimai nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı xüsusi hərəkət zolaqlarının yaradılması hərəkətin təhlükəsizliyinin təmin edilməsi baxımından vacibdir: "Bu gün paytaxtın istənilən inzibati ərazisində aid küçə və prospektlərdə ictimai nəqliyyat vasitələrinin hərəkətində yaşanan problem istər-istəməz digər avtomobil vasitələrinin sürücülərinə də maneələr yaradır. Bu kimi xüsusi hərəkət zolaqlarının yaradılması problemlərin həlli və ictimai nəqliyyat vasitələrindən istifadə edənlərin ləngimədən mənzil başına çatması deməkdir".

Xüsusi hərəkət zolağı ilə hərəkət edəcək digər nəqliyyat vasitələrinə tətbiq olunacaq cərimələrə gəlincə, qurum rəsmisi bildirib ki, ictimai nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı tələblər öz həllini tapdıqdan sonra bu barədə məlumat veriləcək.

## Ağdam sakini anasını avtomobillə vurub öldürdü

**Ağdam sakini anasını avtomobillə vuraraq öldürüb. "Report" Daxili İşlər Nazirliyinin rəsmi saytına istinadən xəbər verir ki, Ağdam rayonunun Əfətli kəndində kənd sakini Niyaz Əliyev idarə etdiyi "VAZ-21011" markalı avtomobillə yolu keçən anası Filyar Əliyevanı vurub. Xəstəxanaya yerləşdirilən qadın orada ölüb.**

Ağdam Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

**Elan**

**Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Nağızadə Rəvan Etibar oğlunun adına olan tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 58 (6672) 16 mart 2017

**Seçkilərə bir aydan da az vaxt qaldığı müddətdə Ermənistanda gərginliyin artması, hətta mübarizə aparan tərəflərin bir-birinə qarşı silah işlətməsi işğalçı ölkənin yaxın perspektivləri ilə bağlı ehtimallar səsləndirməyə imkan verir. Ermənistanın Armavir vilayətində Crarat kənd icma rəhbəri Samvel Qalstyanın həmkəndlisi Akop Melkonyanı avtomatla güllələyib, onun dayısını bıçaqlaması hadisəsi sıradan kriminal olay deyil.**





# "Qarabağ klanı"nın parçalanması Ter-Petrosyanın hakimiyyətə yolunu açır

## İşğalçı ölkədəki aprel seçkiləri Serj Sərkisyanın hakimiyyətinə son verə bilər; erməni prezident Rusiyadan dəstək ala bildimi?

## **Politoloq:** ""Ermənistan klanı" asanlıqla təslim olmayacaq"

Belə ki, hakimiyyətin 2 aprel seçkilərində ən qorxulu rəqibi olan "Ohanyan-Raffi-Oskanyan" bloku bəyan edib ki, Crarat kəndindəki atışmanı hakim Respublika Partiyasının yerli nümayəndəsi həyata keçirib. Blokun mətbuat katibi Areqnaz Manukyanisə bəyan edib ki, Ermənistanın hakim partiyası "Ohanyan-Raffi-Oskanyan" blokuna qarşı silahları işə salıb. Hakimiyyət əvvəlcə hadisənin miqyasını kiçiltmək üçün atəşin tapançadan açıldığını açıqlasa da, sonradan ortada avtomatın olduğu təsdiqləndi. Bu faktın özü Ermənistan hakimiyyətinin xislətini ortaya qoyur. Azərbaycana qarşı cinayətlər nəticəsində hakimiyyət olimpinə qalxmış S.Sərkisyan bu davranışları ilə nəinki Qarabağı Azərbaycana, hətta hakimiyyəti erməni xalqına da güzəştə getmək niyyətində olmadığını nümayiş etdirir. Əslində bu, yenilik deyil, 2008-ci ilin martında məhz Sərkisyan hakimiyyətinin silahları işə salması nəticəsində İrəvan küçələrində 10 ermәninin meyiti qalmışdı. S.Sərkisyanla bu dəfə üz-üzə dayanan isə onunla ortaq cinayətləri bölüşmüş keçmiş müdafiə naziri Seyran Ohanyandır. Sərkisyanı kifayət qədər yaxşı tanıyan, mahiyyətinə bələd olan Ohanyan şübhəsiz ki, güzəştə getməyəcək və bu da son nəticədə qarşıdurmanı gücləndirəcək. Son silahlı qarşıdurmada isə hətta Armavir vilayəti polis müdirinin müavini Levon Eranosyanın qardaşı Lernik Eranosyanın da ağır güllə yarası alması vəziyyətin kritikliyindən xəbər verir. Ohanyanın cangüdənlərinin də silahlanması heç də sadə məsələ deyil.

Amma burada bir məqam var, Ermənistan əhalisi həm S.Sərkisyan, həm də S.Ohanyanı yaxşı tanıyır və onların heç birindən fayda gözləmirlər. Olsa-olsa bu, dünənin "Qarabağ klanı"nın hakimiyyət davası olacaq, ortada isə yenə də dinc ermənilərin meyitləri qalacaq. Xocalı qatili S.Ohanyanın ermənilərə gün ağlayacağı da inandırıcı görünmür. Üstəlik, ölkə əhalisi bu qarşıdurmanı "Qarabağ klanı"nın ssenariləşdirdiyi oyun da sayırlar. Bu mənada erməni xalqı daha normal siyasi xadimlərin ardınca getməyi hədəfləyib. Bu mənada Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın və onun rəhbərlik etdiyi Erməni Milli Konqresinin şansı daha yüksəkdir. Düzdür, eks-prezident yaşlıdır, sağlamlığı da yüksək səviyyədə deyil. Amma Sərkisyan kimi xəstə təfəkkürlü birindənsə, erməni xalqı daha sağlam yanaşmanın müəllifi, Qarabağla bağlı sülh təklif edən və bu bəladan qurtulmağı vacib sayan Ter-Petrosyanı müdafiə etməyə daha çox üstünlük verə bilər. Burada ermənistanlı faktoru da rol oynayır. Reallıq budur ki, nə S.Sərkisyan, nə də sələfi Robert Köçəryan hakimiyyəti Ermənistana xoşbəxtlik gətirmədi. Qarabağ və Ermənistan əhalisinin durumu bəllidir. Ölkədə səfalət hökm sürür, əhali ilbəil azalır, xaricə üz tutan erməni gəncləri Qarabağda, özgə torpaqlarında ölmək istəmirlər. Bu mənada hakimiyyətdən ciddi narazılıq var. Hətta erməni fəallar Bakıdan Sərkisyanı ittiham edir, onun cinayətlərini lənətləyirlər. İş o yerə çatıb ki, hətta Ermənistan prezidentinin dünənki müttəfiqi Ohanyan da Sərksiyanı ittiham edir. Bu mənada haqlı olaraq ortaya sual çıxır, Ter-Petrosyanın, ümumiyyətlə, Ermənistan klanının hakimiyyəti "Qarabağ klanı"ndan alması mümkündürmü? Rusiya faktoru burada kimin tərəfindədir?

Ermənistan əhalisi Qarabağdakı faciələrin davamını yaşamaq istəmir. Keçən ilin aprelində Azərbaycan ordusunun sarsıdıcı cavab zərbələrinin yeri hələ də sağalmayıb. Heç Qarabağdakı bir ovuc mülki əhali də qorxu altında yaşamaq niyyətində deyil və nə yolla olursa-olsun əbədi sülhün əldə olunmasını istəyirlər. Lakin diqqəti daxili problemlərdən yayındırmağı hədəfləyən S.Sərkisyan hətta indiki durumda da savaş ritorikasından əl çəkməyib. O, bugünlərdə Azərbaycanın ünvanına yeni ultimativ bəyanatla çıxış edib.

*****

Fakt budur ki, Köçəryan-Sərkisyan hakimiyyəti Ermənistana xoşbəxtlik gətirmədi. Qarabağ və Ermənistan əhalisinin durumu bəlli. Kütləvi narazılıq var. Hətta ermənilər Bakıdan Sərkisyanı ittiham edir. Həmçinin Seyran Ohanyan Sərkisyanı ittiham edir. Ter-Petrosyanın, ümumiyyətlə, Ermənistan klanının hakimiyyəti Qarabağ klanından alması mümkündürmü? Rusiya faktoru burada kimin tərəfindədir? Qarabağ klanının, yoxsa Ermənistan klanının?

"Ermənistanın bədbəxtliyi təkcə Köçəryan-Sərkisyan hakimiyyəti ilə bağlı olan məsələ deyil. Bu bədbəxtliyin kökündə erməni ultra millətçiliyinin qaynağı olan erməni Qriqoryan kilsəsi, Daşnaksütyun təşkilatı və cilddən-cildə girən rus imperializminin maraqları dayanır". Politoloq Elçin Mirzəbəyli bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi. Onun sözlərinə görə, ermənilərin əksəriyyətini şizofrenik həddə millətçiliyə yoluxdurulmuş, sivilizasiyaya gerçək inteqrasiya olunmağı bacarmayan, sadəcə, vəziyyətə uyğun maskalanmağı bacaran, zamanla imperialist dairələrin casus və təxribat şəbəkəsi, yaxud avanpostu funksiyasını yerinə yetirən varlıqlar təşkil edir. Köçəryan və Sərkisyan isə kilsə-diaspor-Daşnaksütyun-Rusiya (SSRİ) Mərkəzi Kəşfiyyat İdarəsi dördlüyü casus şəbəkəsinin əlaqələndiriciləridir: "Onlar öz missiyalarını layiqincə icra etdikləri və Ter-Petrosyandan fərqli olaraq hətta öz xalqlarının gələcəyini düşünmədikləri üçün hakimiyyətə gətiriliblər. Seyran Ohanyan isə Köçəryan və Sərkisyanın da daxil olduğu şəbəkənin ikinci dərəcəli əlaqələndiricilərindən biridir. Ohanyanın birdən-birə müxalifətə keçməsi və çox qısa zamanda mövqe dəyişməsi bu şəxsin mövcud hakimiyyətə real alternativ olduğuna ciddi şübhələr yaradır".

**E.Mirzəbəylinin fikrincə, Ohanyan Ermənistanın mövcud iqtidarına real müxalifətdə olan qüvvələrin səsini parçalamaq üçün düşünülmüş alternativlərdən biridir:** "Ohanyan və tərəfdarlarının parlamentdə təmsil olunması da mümkündür. Və çox güman ki, onlar parlamentdəki hakim qrupun səs çoxluğunu təmin etmək missiyasını yerinə yetirəcəklər. Ohanyana qarşı sərt tədbirlər həyata keçirilməsi, onun tərəfdarlarına atəş açılması da onun radikal müxalifət imicinin formalaşmasına xidmət edir. Əslində Ter-Petrosyanın rəhbərlik etdiyi Erməni Milli Konqresi Sərkisyan rejiminə qarşı daha real müxalif mövqedə dayanıb. Amma Erməni Milli Konqresinin seçki kampaniyasına ciddi maneələr yaradılmır. Bu da öz növbəsində Ohanyanla bağlı şübhələri daha da gücləndirir. Zənnimcə, parlament seçkiləri Ermənistanda real hakimiyyət dəyişikliyinə gətirib çıxarmayacaq. Əksinə, parlament idarəçiliyi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Moskvanın və onun himayəsində olan erməni siyasətçilərinin manevr imkanlarının genişləndirilməsinə xidmət edəcək".

**Ekspert hesab edir ki, Rusiya nə Qarabağ, nə də İrəvan klanının yanında deyil:** "Rusiya öz maraqlarının yanındadır və bu maraqlar qorunması üçün daha az iddialarla daha çox iş görə bilən qüvvələrə üstünlük verəcək. Yəni siyasətin əlifbasını təşkil edən amillər burada da öz rolunu oynayacaq".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Ermənistanın bu vəziyyətə düşməsində ən böyük günah keçmiş prezident Levon Ter-Petrosyandadır:** "Məhz o, Qarabağ separatçılarını Ermənistanda hakimiyyətə gətirdi. Levon Ter-Petrosyan ilk əvvəl Qarabağ separatçısı və indiki prezident Serj Sərkisyanı İrəvana gətirərək onu daxili işlər və milli təhlükəsizlik naziri təyin etdi. Daha sonra digər Qarabağ separatçısı Robert Köçəryanı İrəvana gətizdirərək onu baş nazir təyin etdi. Bununla da Levon Ter-Petrosyan ölkəsini uçuruma yuvarlandırdı, özünü isə tələyə saldı. Hər iki separatçını Ermənistanda hakimiyyətə gətirməyə Petrosyanı heç bir amil məcbur etmirdi. Tam əksinə, Azərbaycanla sülhə çalışan Levon Ter-Petrosyan separatçılarla məsafə saxlamalı idi. Levon Ter-Petrosyan bir gün Azərbaycanın da qəbul etdiyi "mərhələli həll" planını qəbul etməyə razılaşanda onu hakimiyyətə gətirdiyi həmin separatçılar devirdilər. Odu-budur, Ermənistanda hakimiyyət 20 ildir Qarabağ separatçılarının əlindədir. Ermənistanda anadan olan siyasətçilərin Qarabağ klanından narazılığı aşkardır. Ancaq həmin siyasətçilər bu narazılığın məhz klanlararası mübarizə ilə əlaqəli olduğunu vurğulamırlar".

**E.Şahinoğlunun fikrincə, şərti adı "Ermənistan klanı" əbədiyyətə qədər Qarabağ klanının şıltaqlıqlarına görə kasıblıqda, miqrasiya girdabında sürüklənmək istəmir:** "Qarabağdan Ermənistana gətirilən meyitlər də klanlararası münasibətləri gərginləşdirir. Ermənistanda doğulanlar niyə Ağdam və Füzulidə ölməlidirlər? Bu sual Ermənistan klanı üçün getdikcə aktuallaşır. Hesabla bu amillər 2 aprel parlament seçkisində Ermənistan klanının xeyrinə işləməlidir. Ancaq "Qarabağ klanı" başda Serj Sərkisyan olmaqla, əlindən gələn hər şeyi edəcək ki, iqtidar "yadlar"ın nəzarətinə keçməsin. Buna baxmayaraq, "Ermənistan klanı" asanlıqla təslim olmayacaq. Seçkidən bir gün sonra İrəvanda və Ermənistanın digər şəhərlərində kütləvi etirazları istisna etmirəm, silah səsləri də eşidiləcək".

**Politoloq hesab edir ki, bu mübarizədə Rusiya "Qarabağ klanı"nı dəstəkləyir:** "Ermənistan klanı Rusiya ilə yanaşı, Qərblə də yaxınlaşmanın tərəfdarıdır. Bu faktor isə Kremli qorxudur. Ona görə də Kreml Levon Ter-Petrosyan, Vardan Oskanyan və digər fiqurlardansa Serj Sərkisyana üstünlük verəcək. Onu tanıyırlar, vassaldır, bütün əmrləri can-la-başla yerinə yetirir, digərlərinin isə əmrləri yerinə yetirəcəyinə təminat yoxdur".

Bu ərəfədə Moskvaya, V.Putinin hüzuruna gedən S.Sərkisyan şübhəsiz ki, ondan hakimiyyəti üçün qarantiya istəyib. Ancaq Rusiyanı bir neçə dəfə Azərbaycana silah satdığına görə şantaj edən, Qərbə satan Sərkisyan çətin ki, Rusiya liderinin könlünü ala bilsin.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT

Son səhifə

N 58 (6672) 16 mart 2017



## Siqareti tez tərgidən qadın 9 il artıq yaşayır

Siqareti 40 yaşından əvvəl tərgidən qadınların ömrü siqaret çəkməyə davam edənlərlə müqayisədə 9 il artıqdır. İngiltərədəki Oksford Universitetinin alimləri 1996-cı ildən 2014-cü ilə qədər qadınların sağlıq durumunu müşahidə ediblər. Alimlər 20 faizi siqaret çəkən, 28 faizi siqareti atmış və 52 faizi heç siqaret çəkməmiş 50-65 yaşındakı anket iştirakçılarının 3 illik fasilələrlə həyat tərzləri və sağlamlıq durumlarını araşdırıb. İngiltərənin "Lancet" jurnalında yayımlanan araşdırmaya görə, siqaret çəkən qadınlar çəkməyənlərdən 11 il az yaşayır və 70 yaşından əvvəl ölmə riski də 24 faizdir. Alimlər 40 yaşından öncə siqareti atan qadınların ömrünün 9 il "uzandlığını", hətta 35 yaşından öncə siqareti atanların 10 il "qazandığını" müəyyənləşdirib. Araşdırmaya imza atanlardan Riçard Peto isə deyib ki, siqareti erkən yaşlarda atmaq insana illər qazandırır, amma bu, qadınların 40 yaşa qədər heç bir təhlükə olmadan siqaret çəkə biləcəyi mənasını verməməlidir. Heç siqaret çəkməmiş qadınlara görə siqaret çəkənlərin ölüm riski 20 faiz daha artıqdır.

# 70 yaşında ibtidai məktəbi bitirdi

Türkiyənin Ordu şəhərində yaşayan 70 yaşlı Ümmühan Mazlumoğlu adlı qadın maşın sürmək xəyalını gerçəkləşdirmək üçün ibtidai sinfi oxuyaraq diplom alıb. Bundan sonra isə sürücülük kursuna qatılıb. İki dəfə yazılı imtahan verib, uğur qazana bilməyən qadın əzmlə davam edir və tezliklə sürücülük vəsiqəsi alacağına inanır. Hazırda isə Ü.Mazlumoğlu maşın sürmə texnikasını öyrənir. Türkiyənin "Hürriyet" qəzetinə açıqlamasında 70 yaşlı qadın bildirib ki, uşaqlığından bəri ən böyük arzusu maşın sürmək olub: "Gecə yuxumda da maşın sürürəm. Oyandığım zaman isə "kaş ki, oyanmasaydım, bir az da maşın sürsəydim" deyirəm. Son olaraq qızlarım sürücülük vəsiqəsi alandan sonra mən həvəsləndim. Amma vəsiqə ala bilmək üçün öncə ibtidai sinfi bitirmək lazım idi. Ona görə də ibtidai sinfi bayırdan bitirərək diploma sahib oldum".



# "Hamiləsən" sualını verdilər, bütün həyatı dəyişdi

Amerikada yaşayan 24 yaşlı Amber Rose 152 kilo ağırlığında idi. O, təyyarəyə minə bilmək üçün hər zaman iki yerin pulunu ödəyirdi. Bir gün heç tanımadığı adam ona "Siz neçə aylıq hamiləsiniz" sualını verdi və bununla da həyatı dəyişdi. Bu sualdan olduqca təsirlənən qadın sürətli şəkildə arıqlamağa başladı. 80 kilo verən və 8 min dollar qarşılığında da arıqlayandan sonra ortaya çıxan ekstra dəyişiklik hamını şoka saldı. Qadın özü yerli mediaya açıqlamasında bildirdi ki, "hamiləsən" sualı onun bütün həyatını dəyişib. Belə ki, həmin suala qədər insanların onu kök qadın kimi qəbul etməsinə öyrəşmişdi. Amma hamiləlik sualı ona olduqca pis təsir edib: "Ana olmağa hazırlaşan qadınlara müqəddəs varlıqlar kimi baxıram. Özüm də nə zamansa elə olmaq istəyirəm. Amma hamilə olmadığım halda hamilə münasibəti görmək mənə heç də xoş gəlmədi".





## Meymun serialın hər bölümünə görə 12 min dollar qazanır

Amerikanın NBC kanalında bir komediya proqramında rol alan Kristal adlı meymun "Nyu York Maqazin" jurnalı üçün kamera qarşısına keçib. Bu günə qədər Hollivud istehsalı olan populyar filmlərdə rol alan Kristal adlı meymun NBC televiziyasında yayımlanacaq komediya serialının ulduzu olub. Kristal serialın bir bölümünə görə 12 min dollar pul qazanacaq. "Muzeydə bir gecə", "Hangover" kimi filmlərdə Hollivudun məşhur ulduzları ilə kamera qarşısına keçən meymun Los Ancelesdə lüks bir hoteldə qalır. Çünki "Animal Practice" adlı serialın çəkilişləri Los Ancelesdə keçirilir. Maraqlıdır ki, o, hətta təyyarəyə minəndə də biznes klasda uçur.




QOÇ - İxtiyarınızda bir qədər mistik gün durur. Tanrıya xoş getməyən əməllərdən çəkinin. Ulduzlar gün ərzində büdcənizin ağırlaşacağını bəyan edir. Uzaq səfərləri təxirə salmağınız məsləhətdir.

BUĞA - Kifayət qədər səmərəli gündür. İşbirliyi qurduğunuz adamlarla perspektivli nəticələr əldə edə bilərsiniz. Ulduzlar daha çox maliyyə baxımından uğurlara yiyələnəcəyinizi bildirir.

ƏKİZLƏR - Sizə dəxli olmayan məsələlərə az müdaxilə edin. Onsuz da son məqamda yardımçı olduğunuz şəxslər özünüzə qarşı yönələcək. Günün ikinci yarısında yaxın qohumlara baş çəkin.

XƏRÇƏNG - Yersiz lovğalıq, mənəm-mənəmlik sizə başucalığı gətirən deyil. Bu amili nəzərə alıb ünsiyyətdə olduğunuz adamlara qarşı mərhəmətli davranın. Yeni əlaqələrdən çəkinməyin.

ŞİR - İnsanlarla münasibətdə vəziyyət heç də ürəkaçan olmayacaq. Ola bilsin ki, sizə qarşı təxribat da törədilsin. Hər halda, tədbirli olmağınız lazımdır. Axşam qonaqlıq görünür.

QIZ - Fəaliyyətə ara verməyiniz məsləhətdir. Yaxşı olar ki, ürəyinizə yaxın olan simsarlarınızla bir yerdə olasınız. Bu, daxili nisgilinizi azalda bilər. Ziyarətə getmək də olar.

TƏRƏZİ - Martın ən yaxşı günlərindən birini yaşayacaqsınız. Bu baxımdan, fəaliyyət zəminində uğurlarınız daha çox olacaq. Sövdələşmələrdə qarşı tərəfin mövqeyini mütləq nəzərə alın.

ƏQRƏB - Bütün enerjinizi məhəbbət amilinə yönəldin. Xırda umu-küsüləri və konfliktləri qaydasına salmağa çalışın. Bunu etməsəniz, Göy qübbəsinin qəzəbinə gəlib xəstələnə bilərsiniz.

OXATAN - Fərdi fəaliyyət prinsipində müsbət dönüş yaratmaq istəyirsinizsə, bu təqvimdən maksimum istifadə edin. Əks təqdirdə yaxın günlərdə bu şansı itirəcəksiniz. Hamıya mehriban olun.

OĞLAQ - Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl - ulu Zərdüştün bu tövsiyələri nə qədər ki, qəlbinizə hopmayıb, taledən mərhəmət gözləməyin. İndi seçim sizindir, başlamağa dəyər.

SUTÖKƏN - Səfər və qonaqlıq üçün ideal gündür. Əgər maddi durumunuz buna imkan verirsə, yola düşməyə dəyər. Yaxşı bilirsiniz ki, sizin üçün darıxanlar və yolunuzu gözləyənlər çoxdur.

BALIQLAR - Astroloji göstəricilər şəxsi münasibətlərinizi düzəltmək üçün gözəl imkan qazanacağınızı bildirir. Dəvətlərdən qaçmayın. Axşam dünyadan getmişlərinizə dualar oxuyun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Keçmişi xatırlamaq insanı isidir



Keçmişi və xatirələri yada salmaq soyuq günlərdə çox faydalıdır. Çünki insan nostalgiyaya qapılanda özünü isti hiss edir. Southampton Universiteti alimlərinin araşdırmasında bu, faktlarla sübut olunub. "Emotion" jurnalında dərc olunan araşdırmada alimlər darıxmağın insan orqanizmindəki temperatura təsir etdiyini açıqlayıb. 1500 insan üzərində keçirilən təcrübə zamanı sübut edilib ki, nostaljiyə qapılmaq insanın içini isidir və soyuğa qarşı müqavimətini daha da artırır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100